# NOVRUZ bayramınız mübarək!






*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Sayı: 12 (24.394)

*16 mart 2024-cü il, şənbə*

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*


## Prezident həftəsi

Martın 11-də Azərbaycan Respublikasına dövlət səfərinə gələn Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin rəsmi qarşılanma mərasimi olub. Məhdud tərkibdə görüşdən sonra Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi olub.

Həmin gün Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib.

Prezidentlər Çinin Sian terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasimini videobağlantı ilə izləyiblər. Dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər.

Həmin gün "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin şərəfinə dövlət ziyafəti verilib.

Azərbaycan Respublikasında dövlət səfərində olan Qazaxıstan Prezidenti martın 12-də Füzuli rayonuna gəlib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak ediblər. Həmin gün dövlət başçıları Şuşa şəhərinə səfər ediblər.

Martın 14-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumu işə başlayıb. Prezident İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.



# Ali Baş Komandanın yandırdığı üç tonqal, *yaxud qələbənin rəmzi*

## Prezident İlham ƏLİYEV:

"Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir. Bu, böyük xoşbəxtlikdir. Allah Azərbaycan xalqının dualarını eşitdi. Hər il Novruz bayramı ərəfəsində hamımız, yəqin ki, fikirləşirdik, bir-birimizə deyirdik, inşallah, gələn il Novruz bayramını Qarabağda qeyd edək, gələn il Novruz bayramını Şuşada qeyd edək və bu gün gəldi. 28 ildən sonra biz Şuşaya qayıtdıq. Novruz bayramını Cıdır düzündə qeyd edirik, tarixi ədaləti bərpa etmişik."

Od insan oğluna yemək verib, onu isidib, təhlükələrdən qoruyub. Ona görə də od-ocaq Oğuz övladı üçün həmişə müqəddəs, mistik mahiyyət daşıyıb. Uzaq məsafələrdən bir-birinə məlumat ötürmək, şad və bəd günlərdə həmrəyliyə çağırış tonqal vasitəsilə olub. Elobamıza Novruz gələndə isə dağların zirvəsində tonqallar çatılıb. Ulu Dədəm Qorquddan üzü bəri zirvələrdə bir tonqal qalayanda bütün eli-obanı şənliyə, toya çağırardılar. İki tonqal qalayanda el-obanı düşmənlə mübarizəyə, müharibəyə səsləyərdilər. Üç tonqal qalayanda bütün el-oba birliyə dəvət olunardı. Xalqımızın birlik və həmrəyliyini, zəfərini ifadə edən üç tonqalı isə Müzəffər Sərkərdə, Ali Baş Komandan, Prezident cənab İlham Əliyev 2021-ci ildə Cıdır düzündə, 2022-ci ildə Suqovuşanda, 2023-cü ildə isə Talışda alovlandırdı.

Oğuz elinə Novruz gələndə ağrı-acılarımızı tonqalda yandırırıq ki, yeni baharımız, yazımız xoş əhvali-ruhiyyə gətirsin, şadlıq və sevincli günlər qədəm bassın həyatımıza. Bir neçə il bundan əvvələ qədər arzularımız var idi Novruz tonqallarının qalanacağı yurd yerlərimiz haqqında. O arzularımız da gerçəkləşib artıq. Vaxtilə düşmən tapdağında qalan yurdlarımızda Novruz tonqalları qalanır indi. Dədə Qorqud boylarından boyverən bu oyanış artıq dörd ildir ki, düşmən tapdağından azad olunmuş yurdlarımızda gerçəkləşir. Yağının qayğı göstərmədiyi, əkib-becərmədiyi, tülkü-çaqqal yuvasına çevirdiyi, yaraladığı torpaqlara indi yenidən bahar gəlir, həyat qayıdır. Yurd yerləri qurulur, abad olur, cənnətə çevrilir. Həsrət və sevgi ilə, böyük inam və ümidlə öz doğma övladlarını gözləyir. Gözləyir ki, övladları onun yaralarına məlhəm olsunlar.

Ali Baş Komandanın alovlandırdığı üç tonqal ətrafında xalqımız bir amal uğrunda, bir müqəddəs ideya uğrunda daha sıx birləşdi və istəyinə nail oldu. Cənab Prezident milli birliyi, milli həmrəyliyi təmin etdi. Bu olmasa idi, Qələbə də olmayacaqdı. Vətənin igid oğulları, cəsur övladları sıldırım qayalardan qalxaraq, dərədən-təpədən, Xocavənd meşələrindən, cığırlardan keçərək Şuşaya gəldilər. Yüngül silahlarla, tapançalarla, süngü-bıçaqla mübarizə apardılar və o zirvədə qələbə tonqalları qaladılar. Bu gün biz azad Qarabağdayıq, Zəngəzurdayıq. Biz – bu torpaqların sahibləri olaraq qayıtmışıq. Məhz üç tonqal xalqımızı birliyə, həmrəyliyə çağırdı.

Bu gün Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik, bütün Qarabağda qeyd edirik. Cıdır düzündə dilimlənən bayram tonqalı bu torpaqların qədim sahiblərinin şanlı keçmişinə, parlaq gələcəyinə işıq tutur, tarixi ədalətin bərpa edilməsinə şövqlə parlayır. İndi Vətən həsrəti ilə yaşamış və həyatdan getmiş, bu torpaqların azad edilməsini görməyən minlərlə, on minlərlə məcburi köçkünlərin ruhu şaddır, şəhidlərimizin ruhu şaddır.

Bu il artıq tarixi Zəfərimizdən sonra dördüncü dəfədir ki, biz Novruz bayramını doğma Qarabağ diyarında qeyd edəcəyik. Bütün Qarabağ və Şərqi Zəngəzur bölgəsində genişmiqyaslı abadlıq işləri aparılır, şəhərlər yenidən qurulur, kəndlər yenidən salınır. Bugünkü güclü Azərbaycan bütün bu işləri görməyə qadirdir. Siyasi iradə var, iqtisadi güc var, xalqımızın səfərbərliyi var, milli həmrəylik ən yüksək zirvədədir və əlbəttə ki, şanlı tarixi Zəfərimiz hər birimiz üçün qürur mənbəyidir. Biz haqlı olaraq fəxr edirik ki, müzəffər dövlətin vətəndaşlarıyıq. Ordumuzla fəxr edirik, bizə bu xoşbəxtliyi yaşadan gənclərimizlə fəxr edirik.

Cənab Prezidentin ***"Mən xoşbəxt adamam ki, əziz, doğma xalqıma işğaldan azad edilmiş Qarabağdan Novruz bayramı münasibətilə təbriklərimi çatdırıram"***, – deyərək alovlandırdığı tonqalların qığılcımları göyləri yandırmasa da, düşmənin bağrını yarır, yarasaların gözlərini qamaşdırır, torpağımızı yenidən oyadır. Dədə Qorqud Oğuz oğluna tapşırıb ki, dağların başında üç tonqal qalasın. Qoy düşmən bilsin ki, Oğuz yurdunun ocağı gur yanır... Bunun rəmzi mənası var. Üç tonqal qələbənin rəmzidir. Üç tonqal qalamağa qadir olan xalqımızın Novruzu bu torpaqlarda keçirməsi, bu torpaqlardakı ilk tonqalları Müzəffər Sərkərdə cənab İlham Əliyevin alovlandırması isə bizə böyük qürur və iftixar hissi gətirir.

Dədə Qorquddan üzü bəri üç tonqal milli birliyin göstəricisi sayılırdı. Buna görə də heç kim bizim qabağımızda dura bilmədi. Əsrlərdən üzü bəri yol gələn üç tonqal Azərbaycan xalqının öz lideri ətrafında sıx birləşməsini təcəssüm etdirdi.

Qərinədən sonra bu torpaqları ziyarət etmək, o məzarsız şəhidlərimizin sanki məzarını ziyarət etmək qədər müqəddəs bir missiyadır. Novruz tonqalları o torpaqlarda gəzən ruhlara bir məlhəm, bir işıq oldu. Yol göstərdi onlara, azadlığın yolunu göstərdi.

Bu torpaqlarda bayram tonqalları əbədi alovlanacaq. Odlar yurdunun alovunu, işığını dünyaya yayacaq. Xalqımıza, dövlətimizə qarşı olan ədalətsizlik və haqsızlıqlar bu tonqallarda alovlanıb kül oldu. Alovun qırmızı rəngi xalqımızın bütövlüyünü, gücünü, həmrəyliyini bir daha dünyaya bəyan etdi.

Ali Baş Komandanın Qarabağda alışdırdığı Novruz tonqallarımız daha gur olsun, Odlar yurdunun sönməz tonqalları kimi əbədi yansın. Dosta inam, düşmənə qorxu salsın. Üç tonqalımız daimi olsun.

**Məmməd BABAYEV**


Xəzərin hər iki tayını birləşdirən qardaşlıq körpüsü 2

Naxçıvanda sosial qayğıya ehtiyacı olan 1200 ailəyə bayram sovqatları verilib 3

Naxçıvanın 20 yaşlı cavanı 5

Şəfqət və mərhəmət duyğularının təntənəsi RAMAZAN ayı 9

Turana açılan qapı – Naxçıvan 10

Elimizə bahar gələndə 12



# Azərbaycan-Qazaxıstan əlaqələri:

## Xəzərin hər iki tayını birləşdirən qardaşlıq körpüsü

Son dövrlərdə Azərbaycan və Qazaxıstan dövlət başçılarının qarşılıqlı silsilə səfərləri iki ölkə arasında münasibətlərdə yeni mərhələnin yaranmasına təkan verib. Son ilyarımda belə səfərlərin dinamikasına nəzər salsaq, Azərbaycan Prezidentinin Qazaxıstana dörd dəfə, Qazaxıstan Prezidentinin isə bu səfərlə birgə ölkəmizə üçüncü dəfə gəldiyinin şahidi oluruq. Qazaxıstan dövlət başçısının Azərbaycana budəfəki səfəri isə bir çox əhəmiyyətli tərəfləri ilə seçilir. Xüsusilə bu yaxınlarda yenidən yüksək səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyevin türk dövlətləri ilə əməkdaşlığın ölkəmiz üçün prioritet istiqamətlərdən biri olduğunu açıqlaması qarşıdakı dövrdə mövcud əlaqələrin daha da dərinləşdirilməsi zərurətini ortaya qoydu. Qazaxıstan isə bu sırada daha çox gözlənilən idi. Çünki təbii ki, səfər nəticəsidir ki, Qazaxıstan Prezidentinin hələ 2022-ci ilin avqustunda ölkəmizə səfəri zamanı iki ölkə arasında strateji münasibətlərin və müttəfiqlik əlaqələrinin dərinləşdirilməsi haqqında Bəyannamə imzalanıb. Bu sənəd növbəti dövr üçün əlaqələrin xarakterini və formasını müəyyən edib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2023-cü il noyabrın 2-də Qazaxıstana səfərində Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında Astanada keçirilən 10-cu yubiley Zirvə görüşündə iştirak edib. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev isə ötən il noyabrın 24-də Bakıda keçirilən BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün ölkəmizdə işgüzar səfərdə





rixi qardaşlıq əlaqələri ilə bərabər həm də Trans-Xəzər nəqliyyat dəhlizinin bir bağlantısı olan və ərazisinə görə dünyanın doqquzuncu ölkəsi sayılan Qazaxıstan Çindən Avropaya uzanan dəhlizin əsas halqası kimi Türk dünyasında da mühüm potensiala malikliyi ilə seçilir.

Vurğulamaq lazımdır ki, hər iki ölkənin dostluq və qardaşlıq ənənələri əsrlərə söykənir. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci ilin avqust ayında qurulub. Ötən dövrdə Azərbaycan-Qazaxıstan münasibətləri böyük inkişaf yolu keçib və bu əlaqələr strateji səviyyəyə qədər yüksəlib. Bunun olub. Təsadüfi deyil ki, Qazaxıstan Prezidentinin Azərbaycana son səfəri kompleks xarakter daşımış, doqquz dövlətlərarası sənəd imzalanmışdır. Bu sənədlərin əhatə etdiyi sahələrə nəzər salsaq, qarşılıqlı əlaqələrin bir çox vacib istiqamətlər üzrə müəyyənləşdiyini deyə bilərik.

Qazaxıstan türk dövlətləri içərisində mühüm iqtisadi potensiala malik ölkələrdəndir. Kənd təsərrüfatı sahəsinə baxsaq, bu türk dövləti dünyada taxıl istehsalına görə ilk onluqdadır. 2011-ci ildə Qazaxıstan 27 milyon ton taxıl istehsal edərək rekord səviyyəyə çatmışdır. Aqrar sahə ilə yanaşı, maşınqayırma, mədən və kimya sənayesi də qardaş ölkədə inkişaf etdirilən əsas sahələrdəndir. Böyük dənizlərə çıxışı olmayan Qazaxıstan həm də Xəzərdə yetərli karbohidrogen yataqlarına sahibdir. Hələ 2009-cu ildə BP şirkəti Qazaxıstanda neftin sübut edilmiş ehtiyatlarının həcminin 6,5 milyard ton, proqnozlaşdırılan ehtiyatların yalnız Xəzər dənizinin Qazaxıstan sektoruna aid olan yerlərində isə 17 milyard tondan çox olduğunu bildirmişdi. Həmçinin həmin ilin əvvəlinə olan məlumata görə, Qazaxıstanın aşkar edilmiş təbii qaz ehtiyatları 1,82 trilyon kubmetr təşkil edirdi ki, (BP-nin hesablamalarına əsasən) bu da dünya ehtiyatlarının 1,7 faizinə bərabərdir.

Azərbaycan öz ərazi bütövlüyünü təmin etdikdən sonra regionda yeni reallıqların yaranması həm Azərbaycan, həm də Qazaxıstan qarşısında böyük üfüqlər açır. Xüsusilə Trans-Xəzər nəqliyyat dəhlizi hər iki ölkə üçün böyük perspektivlər vəd edir. Bu kontekstdə Azərbaycan Xəzəryanı ölkələr üçün nə qədər açar rolunu oynayırsa, Qazaxıstan da Çin, ümumilikdə isə Şərq ölkələri üçün bir o qədər əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, Qazaxıstan liderinin Bakı səfərində Çinin Sian terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasiminin təqdimatı həm də bu layihənin əhəmiyyətini ortaya qoyurdu. Sözsüz ki, bu layihə digər sahələrlə bərabər Qazaxıstan və Azərbaycan arasında nəqliyyat-logistika tərəfdaşlığının da bariz nümunəsi kimi diqqəti cəlb edir.

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana səfərində maraqlı məqamlardan biri də hər iki ölkə arasında 300 milyon ABŞ dolları dəyərində investisiya fondunun yaradılmasının planlaşdırılması idi. Bu fond hər iki dövləti maraqlandıran layihələri, eləcə də Mərkəzi Asiya ölkələri, Bolqarıstan, Macarıstan, Rumıniya və Türkiyə iqtisadiyyatlarının müxtəlif sektorlarında birgə prioritet layihələrin maliyyələşdirilməsini də təmin edəcək. Sözsüz ki, son illərdə hər iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlıq imkanlarının genişlənməsi xarici ticarət dövriyyəsinin artmasına imkan verib. Hazırda bu sahədə müsbət dinamika müşahidə olunur. Belə ki, təkcə ötən il adıçəkilən iki ölkə arasında ticarət dövriyyəsi 598,47 milyon dollar olub. Eyni zamanda 2023-cü ildə tranzit yükdaşımaların həcmi 65 faiz artıb və 4,2 milyon tona çatıb. Ötən ilin yanvar ayı ilə müqayisədə cari ilin yanvar ayında yükdaşımalar 2,5 dəfə artıb. Çindən konteyner daşınması isə 3 dəfə artıb. Səfər çərçivəsində Qazaxıstanın "KazMunayQaz" və Azərbaycanın SOCAR neft şirkətləri arasında Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan kəməri ilə nəqlinin həcminin 2,2 milyon tona çatdırılması barədə Sazişin imzalanması da iqtisadi əlaqələrin inkişafı üçün yetərli potensialın olduğunu göstərir. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti çıxışında xüsusi olaraq vurğuladı ki, Xəzər dənizi Qazaxıstan ilə Azərbaycanı ayırmır, əksinə, iki qardaş dövlətin yaxınlaşması üçün körpü rolunu oynayır.

Təbii ki, Qazaxıstan və Azərbaycan arasında istənilən sahədə əməkdaşlıq ilk olaraq dostluq və qardaşlıq prinsipinə əsaslanır. Xüsusilə Füzuli şəhərində Qazaxıstan şirkəti tərəfindən inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışında hər iki liderin iştirakı, eləcə də dövlət başçılarının Şuşaya birgə səfəri, mətbuata bəyanatlarda məxsusi tezislərin vurğulanması qardaşlıq münasibətlərinin ruhundan irəli gəlirdi.

Bu səfər həm də onu ortaya qoydu ki, Qazaxıstan və Azərbaycan əldə olunan razılaşmalara əsasən bundan sonra bir-birinə daha yaxından dəstək göstərəcəklər. Hər iki ölkə istər ərzaq təhlükəsizliyinin təmin olunmasında, istər enerji daşıyıcılarının Avropa bazarlarına çıxarılmasında, istərsə də milli təhlükəsizlik məsələlərində daha fəal iştirak edəcəklər. Əgər bəzi siyasi dairələrin düşüncəsinə görə Nazarbayev dövründən sonra Qazaxıstanın türk dövlətləri arasında mövqelənməsi çətin görünürdüsə, bu səfərdən sonra həmin düşüncələr də tarixin arxivinə yuvarlandı. Artıq irəliyə getmək vaxtıdır. Türkün düşüncəsində isə qardaşı arxada qoymaq məntiqi yoxdur!

✍ Səbuhi HƏSƏNOV

## Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi Qazaxıstanda qeyd edilib



Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, "Qarabağ" Etnomədəni Birliyinin təşkilatçılığı ilə Qazaxıstanın Türküstan vilayətində Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi qeyd edilib. Tədbirdə Qazaxıstanın rəsmi şəxsləri, Dövlət Komitəsinin əməkdaşları, digər icmaların nümayəndələri və soydaşlarımız iştirak ediblər.

Komitədən bildirilib ki, Novruz bayramı ərəfəsində baş tutan tədbirdə Naxçıvan mətbəxindən nümunələr, Azərbaycanın milli adətləri, o cümlədən Naxçıvana məxsus ənənələr nümayiş olunub.

Tədbirdə qonaq qismində iştirak edən Türküstan vilayəti "Koğamdık Kelisim" (İctimai Müqavilə) dövlət müəssisəsinin sədr müavini Elmira Janqazieva "Qarabağ" etnomərkəzinin fəaliyyətini yüksək qiymətləndirib.

Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinin xarici ölkələrdə qeyd olunmasının əhəmiyyətindən, Azərbaycan diasporunun fəaliyyətindən, eləcə də xaricdə yaşayan azərbaycanlıların Azərbaycançılıq ideyası ətrafında sıx birləşməsindən danışıb.

Daha sonra Sayram rayonunun icra nümayəndəsi və digər icmaların rəhbərləri çıxış ediblər.



Tədbirin bədii hissəsində Qarabağ məktəbinin şagirdlərinin əl işləri, Azərbaycandan dəvət edilmiş musiqiçilərin ifasında Azərbaycan musiqiləri, "Naxçıvan" rəqs ansamblının ifasında milli rəqslərimiz qonaqlar tərəfindən maraqla qarşılanıb.

# Naxçıvanda sosial qayğıya ehtiyacı olan 1200 ailəyə bayram sovqatları verilib




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqəti və tapşırığı ilə ölkəmizdə ardıcıl sosial layihələr icra olunur.

Martın 14-də – Novruz bayramı ərəfəsində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən digər bölgələrlə yanaşı, Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında yaşayan aztəminatlı, o cümlədən şəhid, qazi və digər həssas qruplardan olan 1200 ailə üçün ərzaq



bağlamalarından ibarət yardım təşkil olunub.

Azərbaycan Respublikası Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev, konfederasiyanın sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev bayram sovqatının təşkili ilə bağlı Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə məlumat veriblər.

Sonra sovqatlardan ibarət 6 avtomobil təyinatı üzrə ünvanlara yola salınıb.

**"Şərq qapısı"**

# Naxçıvanda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 3 təşkilatı üçün yeni inzibati bina istifadəyə verilib





Martın 15-də Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində olan Hidrometeorologiya Mərkəzi, "Yaşıllaşdırma və Landşaft Quruluşu" MMC və Meşələrin İnkişafı və Biomüxtəlifliyin Qorunması İdarəsi üçün inzibati binanın açılış tədbiri keçirilib.

Tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli kollektivlərlə görüşərək bildirib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan prioritet sahələrdən biri də ətraf mühitin qorunmasıdır. Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi və Ordubad şəhərinin Dövlət Tarix-Mədəniyyət Qoruğuna çevrilməsi fonunda bu il yaşıllaşdırma, ətraf mühitin mühafizəsi və tarixi-mədəni abidələrin pasportlaşdırılması istiqamətlərində mühüm tədbirlər həyata keçiriləcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyi, onun tabeliyində olan təşkilatların əməkdaşlarının da bu istiqamətlərdə üzərinə mühüm işlər düşür. Fuad Nəcəfli kollektivlərə fəaliyyətlərində uğurlar arzulayıb, onları qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edib.



Sonra binada yaradılan şəraitlə tanışlıq olub.

Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini, nazir vəzifələrini icra edən Xanlar Mustafayev əvvəlcə inzibati binanın tikintisi layihəsini təqdim edib, bina barədə qısa məlumat verib.

Qeyd edilib ki, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada iş otaqları, laboratoriya, iclas zalı, anbarlar yerləşir. Burada yaradılan şərait muxtar respublikada hidrometeorologiya, meteorologiya, aqrometeorologiya, hidrologiya, məlumatların toplanması, təhlili, hazırlanması, saxlanılması və ötürülməsi işini də asanlaşdıracaq.

Sonda mövcud və yeni alınmış nəqliyyat vasitələri, anbar və avadanlıqlara baxış keçirilib.

**"Şərq qapısı"**

# Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində mart ayının ilk 15 günü ərzində bir sıra qərarlar qəbul edilib, sərəncamlar imzalanıb. Belə ki, Nazirlər Kabinetinin 2024-cü il 1 mart tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikası vergi orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, vergi orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədi ilə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi barədə" Nazirlər Kabinetinin 2017-ci il 11 noyabr tarixli Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən İqtisadiyyat Nazirliyinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və elmi-texniki potensialının artırılması məqsədi ilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası yeni redaksiyada təsdiq edilmişdir.

Nazirlər Kabinetinin 2024-cü il 5 mart tarixli Qərarı ilə "Naxçıvanpoçt" publik hüquqi şəxsi tərəfindən göstərilən xidmətlərin tarifləri"nin təsdiq edilməsi haqqında" 2019-cu il 28 dekabr tarixli Qərarının ləğv edilməsi və "Naxçıvanpoçt" publik hüquqi şəxsi tərəfindən göstərilən xüsusi rabitə xidmətlərinin tarifləri"nin təsdiq edilməsi haqqında" 2022-ci il 7 sentyabr tarixli Qərarı ləğv edilmişdir.

"Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinin ləğv edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müvafiq Sərəncamının icrasının təmin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən 2024-cü il 12 mart tarixdə Sərəncam imzalanmışdır. Sərəncama əsasən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Dövlət Ehtiyatları Agentliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla bir ay müddətində Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərinin Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə təqdim edilməsi müəyyən edilmişdir.

Həmçinin "Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin maddi-texniki bazasının yaxşılaşdırılması və Aparatının işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müvafiq Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar Nazirlər Kabineti tərəfindən 2024-cü il 12 mart tarixdə Sərəncam imzalanmışdır. Sərəncama əsasən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla, Naxçıvan Muxtar Resspublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Nazirlər Kabinetinə təqdim edilməsi tapşırılmışdır.

Bundan başqa, "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 fevral tarixli Sərəncamının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 fevral tarixli Sərəncamından irəli gələn məsələlərin həll edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən 2024-cü il 13 mart tarixdə Sərəncam imzalanıb. Adıçəkilən Sərəncama əsasən "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun sərhədləri və mühafizə zonası, Qoruğun ərazisinin xüsusi rejimi ilə bağlı təkliflərin hazırlanması üçün komissiyanın yaradılması və onun tərkibinin təsdiq edilməsi müəyyən edilmişdir. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi komissiyanın işini nəzarətdə saxlayaraq və Qoruğun sərhədləri və mühafizə zonası, Qoruğun ərazisinin xüsusi rejiminə dair qərar layihələrinin aidiyyəti sənədlərlə birlikdə bir ay müddətində Nazirlər Kabinetinə təqdim etmələri müəyyən edilmişdir.

Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasında informasiya məhsulunun yaş kateqoriyalarına aid edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında", Naxçıvan Muxtar Respublikasında informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədəolma müddətinin dayandırılması və ya ona xitam verilməsi, ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət Qaydaları"nın təsdiq edilməsi haqqında" və "Naxçıvan Muxtar Respublikasında informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə Ekspert Şurasının Əsasnaməsi"nin təsdiq edilməsi haqqında qərarları ləğv edilmişdir.

Nazirlər Kabinetinin eyni tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Aparatının strukturunun və ştat cədvəlinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin ştat cədvəli"nin təsdiq edilməsi haqqında", "Jurnalistlərin Naxçıvan Muxtar Respublikası ərazisində cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Əlahiddə Ümumqoşun Ordusu ilə razılaşdırılması Qaydası"nın təsdiq edilməsi barədə" və "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi tərəfindən apostil şəhadətnaməsinin verilməsi ilə bağlı məsələlərin tənzimlənməsi haqqında" qərarları ləğv edilmişdir.

Həmçinin Nazirlər Kabinetinin 2024-cü il 14 mart tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin polis əməkdaşının maddi və sosial təminatları ilə bağlı qaydaların təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2021-ci il 31 mart tarixli Qərarında dəyişiklik edilmişdir.

# Bu gün Türkiyədə "Naxçıvan fotolarda" adlı fotosərginin açılışı olacaq

***Sərgidə "Şərq qapısı" qəzetinin fotoları yer alacaq***



Martın 16-da Türkiyə Cümhuriyyətinin İğdır şəhərində "Şərq qapısı" qəzetinin "Naxçıvan fotolarda" adlı fotosərgisi açılacaq.

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunan fotosərgi Türkiyə Cümhuriyyəti Naxçıvan Baş Konsulluğu, "Şərq qapısı" qəzeti və İğdır Azərbaycan Evi tərəfindən təşkil olunub.

Sərgidə qəzetin fotomüxbirləri Əli Xudiyev, Əsəd Səfərov və Zülfüqar Qurbanlının Naxçıvanı tərənnüm edən fotoları yer alacaq.

Sərgiyə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı daxil olmaqla Naxçıvandan 14 nəfərlik nümayəndə heyəti qatılacaq. Sərgidə İğdır valisi, Türkiyə Cümhuriyyətinin Naxçıvandakı Baş konsulu, hökumət və media nümayəndələri iştirak edəcəklər.

Sərgi 3 gün davam edəcək.




# Xankəndidən təmizlənən tülkü yuvaları

Son günlər aparılan ikitərəfli dialoqlardan təşvişə düşüb Ermənistanla Azərbaycan arasında sülhün olmaması üçün hər şeyə hazır olan Qərb və xüsusən də Fransa revanşist erməniləri Azərbaycana qarşı qızışdırmaq üçün yeni bəhanələr tapmaqda dəridən-qabıqdan çıxırlar. Xankəndidə hər cür cinayətlər törətmiş separatist rejimin tülkü yuvalarının təmizlənib əvvəlki görkəminə qaytarılmasını əldə bayraq edən ermənipərəstlər uzun illər ərzində Qarabağda yerlə bir edilmiş Azərbaycan mədəniyyətinin izlərini heç vaxt unutmamalıdırlar.

Başqalarından torpaq qoparmaq kimi qeyri-qanuni əməlləri olan separatizm dünyadakı bütün mövcud siyasi konfiqurasiyanı məhv etdiyi kimi erməni separatizmi də təkcə Qarabağda deyil, bütün Cənubi Qafqazda dinc həyatı alt-üst etmiş, insanların xoşbəxt həyatına zəhər qatmış qara ilan kimi yaddaşlarda dərin yaralar qoymuşdur. Bu mənada, özlərinə məxsus acgözlük instinkti ilə 1980-ci illərin sonunda Xankəndi küçələrinə tökülüşüb "Miatsum" qışqıran haylar üzərindən 35 il keçəndən sonra "erməni millət deyil!" – deyə-deyə şələ-şüləsini yığışdırıb aradan çıxdıqlarında artıq iş işdən keçmişdi. İllər boyu yedikləri çörək burunlarından gəlmişdi. Artıq Qarabağda nə cinayətkar xunta, nə onların birbaşa hamisi, nə də işğalçı Ermənistan ordusu qalmışdı.

Qarabağın erməni separatizmindən təmizlənməsi təkcə Azərbaycanı deyil, bütün yaxın bölgəni, hətta dünyanı düşündürən məsələdir. Bu mənada, separatizm yuvalarının sökülməsi, onlara məxsus olmuş hər cür simvolik bina və infrastruktur obyektlərinin təmizlənməsi bu gün hələ də Qarabağda insanların həyatını fiziki olaraq məhv edən minaların tapılıb zərərsizləşdirilməsi qədər zəruridir. İşğal olunmuş ərazilərdə ermənilərin basdırdığı milyondan artıq partlamamış minanın insanların həyatına törətdiyi təhlükə qədər Qarabağda separatistlərin apara bilmədikləri hər cür törtöküntü də insanlara o dərəcədə mənəvi zərərlər vurmaqdadır. Azərbaycanlılar unutmurlar ki, məhz bu binalarda komuflyaj olunaraq gizlənmiş hay cinsindən olan tülkülər minlərlə günahsız insanın qətli üçün fitvalar vermiş, bölgəni narkotik mərkəzə çevirmiş, xalqımıza məxsus maddi mədəniyyət nümunələrini məhv edib talamış, Bakıya tank yeritmək hədəsi ilə başlarından böyük danışmışlar. Doğrudur, bu tülkülərdən bir neçəsi artıq quyruğundan tələyə düşüb, Bakıda mühakimə olunacağı günü gözləsələr də, bəziləri hələ də Ermənistanda, yaxud Fransada oturub guya tarixin məhvindən zəvzəkləyirlər. Ancaq fakt odur ki, hələ sovet dövründə təsdiqlənmiş Xankəndinin baş planında yer almayan bu tikililərin sökülməsinin Azərbaycanın ölkə qanunvericiliyinə uyğun daxili işi olduğunu bilə-bilə ermənilərin separatizm izləri daşıyan və yaşı 20-25 ilə çatmayan binaların tarixi adlandırılması da tülküyə şir donu geyindirilməsi qədər gülüncdür. Harada olursa-olsun, yeri gəldi-gəlmədi, istər toyuq, istərsə də tülkü damı kimi tikdikləri binalara xaç yapışdıran ermənilər isə, bu mənada, hər yerdə özlərinə qarşı gülüş doğururlar.



Dünyada davam edən qanlı müharibələr göstərir ki, şanlı Azərbaycan Ordusunun erməni separatizmini məhv etməsi Ermənistanı da bir dövlət kimi yox olmaqdan xilas etmişdir. Bunu yaxşı başa düşən, amma erməni xislətindən dolayı hələ də açıq etiraf edə bilməyən kasıb Ermənistan cəmiyyəti isə bir vaxtlar onların özünə də yaman şiş kimi yara olmuş xunta rejiminin son qalıqlarının təmizlənməsinə, sadəcə, ağır tikinti texnikasının işinə maraqla tamaşa edən uşaqlar kimi yanaşır. Bu gün Rusiyadan çox incik düşmüş ermənilər üçün maraqlı olacaq bir məqam da bu söküntü işlərində diqqətə çarpır: xuntaçılara məxsus olmuş binaları sökən müasir texnika tikinti tullantılarını rus "Kamaz"larına yükləyib şəhərdən kənara çıxarır.

Əli CABBAROV

# Özü yıxılan ağlamaz



Keçən günlərdə belə bir xəbər oxudum ki, Ermənistandakı Avropa İttifaqı missiyasının üzvləri avtomobil qəzasına düşüblər. Onların başına gələn bu hadisənin necə və hansı şəraitdə baş verməsi şəxsən məni qətiyyən maraqlandırmır. Əgər kobud səslənirsə, hörmətli oxucu məni bağışlasın, məsələ budur ki, qəzaya düşən avroşüvənlərin Sünik vilayətində (Zəngəzur) nə iti azıb axı?

Muxtar RZAZADƏ

Azərbaycan hər zaman münasibətlərə açıq dövlətdir. İstər müharibədən əvvəl, istərsə də şanlı Qələbəmizdən sonra müxtəlif siyasi mərkəzlərdən Ermənistanla münasibətlərin normallaşması, sülhün əldə edilməsi, sərhədlərin delimitasiyası ilə bağlı bütün çağırışlara "hə" deyib, təşəbbüslərə müsbət yanaşıb. İki il bundan öncə – daha doğrusu, 2022-ci il oktyabrın 6-da Avropa Siyasi Birliyinin Çexiyanın paytaxtı Praqada keçirilən Zirvə toplantısında Azərbaycan Ermənistan tərəfi boyunca sərhədə Avropa İttifaqının (Aİ) müvəqqəti missiyasına da razılıq vermişdi. Bununla bağlı qəbul olunan Bəyanatda qeyd olunurdu ki, Aİ-nin missiyası oktyabr ayında gələcək və maksimum iki ay müddətində işləyəcək. Onun məqsədi etimad yaratmaq və hesabatları ilə sərhəd komissiyalarının işinə töhfə vermək olacaq.

İndi gəlin sonrakı proseslərə nəzər salaq. Bu razılaşmadan çox keçməmiş Ermənistan Aİ-nin müvəqqəti missiyasının qeyri-müəyyən müddətədək uzadılmasına dair birtərəfli qərar qəbul edib, sərhəddə guya monitorinq aparacaq müşahidəçilərin sayının 209-a çatdırılacağı təsdiqləndi. Azərbaycan Prezidenti isə bu ilin yanvar ayında yerli telekanallara verdiyi müsahibə zamanı bu mövzuya belə münasibət bildirdi: ***"Praqa görüşünün bir məqamı da var idi. O, ümumi kontekstin bir qədər kənarında qaldı. Bu da Ermənistan ərazisinə, bizim sərhədyanı bölgələrə Avropa müşahidəçi missiyasının göndərilməsi idi. Bu məsələ də çox geniş müzakirə edilmişdir. Təkliflərdən biri o idi ki, o cümlədən Azərbaycan tərəfinə də bu missiya göndərilsin. Biz buna etiraz etdik. Ancaq Ermənistana bu missiyanın göndərilməsinə razılıq verdik. O vaxt da danışıldı və orada müzakirə olundu ki, bu missiya qısamüddətli, 40 nəfərdən ibarət olacaq və cəmi iki ay çəkəcək. Mən də bununla razılaşdım. Ancaq sonra nədənsə bu danışıq, yəni bu razılaşma pozuldu. Bu, əlbəttə ki, çox məyusedici bir məqamdır. Çünki biz ciddi adamlarıq. Burada ciddi söhbətlər gedir. Biz nəyisə razılaşdırırıqsa, hətta şifahi olsa belə buna əməl etməliyik. Necə ola bilər? Bir müddət sonra Avropa İttifaqının yüksək vəzifəli şəxsi demişdi ki, missiya uzadılacaq. Ondan sonra Fransanın xarici işlər naziri demişdi ki, biz missiyanı uzadacağıq. Əlbəttə, biz dərhal hərəkətə keçdik və izahat tələb etdik. Bu, nə məsələdir? Siz bunu necə uzadacaqsınız? Siz axı bu missiyanın göndərilməsini bizimlə razılaşdırmısınız. Nə üçün? Çünki bu bizim sərhədimizin yanında olacaq. Necə ola bilər ki, bu bizimlə razılaşdırılmasın?"***

Ölkə Prezidentinin sözünə qüvvət, bu adamların qətiyyən siyasi çəkisi və ciddiyyəti yoxdur. Əks təqdirdə, iki il əvvəl Çexiyada keçirilən o mötəbər tədbirdə razılaşmaya sadiqlik göstərilər, Aİ-nin müvəqqəti missiyası iki ay sonra öz işini başa vurub ev-eşiyinə dönərdi. Ermənistanın özünə, sözünə və imzasına hörmət etməməsi bizim üçün adi haldır. Əvvəl-əvvəl bizi təəccübləndirən avropalı siyasət adamlarının davranışları idi ki, artıq onlara da adət etmişik. Siyasi fiqurların timsalında Aİ-nin mülki missiyası da ötən bu iki ildə ən yaxşı variantda elə ikiüzlülüklə məşğul oldu. Guya bu adamlar Ermənistan-Azərbaycan sərhədi boyunca müşahidələr aparacaq, hesabatlar hazırlayacaq, sülh prosesinə töhfə verəcək, iki ölkə arasında etimad quruculuğu istiqamətində müsbət addımlar atacaqdılar. Məqsəd, məram qaldı bir kənarda, Ermənistanda üzlərinə yaxşı baxılan avroemissarlar sərhəd boyunca özlərinə lövbər saldılar.

Yadınızdadır, 2023-cü ilin iyul-avqust aylarında ermənilər sərhəddə "tır şousu" göstərən zaman Cənubi Qafqaza yerləşən Aİ-nin mülki missiyasının üzvləri hərəsi əlinə bir binokl alıb şüvənlik elədilər ki, amandır ermənilər Xankəndidə acından qırılır, bəs biz də gəlmişik onların "yarasına məlhəm olaq". Əsl missiyasını unudan qərbli qonaqlar bu dövr ərzində Ermənistan-Azərbaycan sərhədində qarşı tərəfin törətdiyi bütün təxribatlara göz yumdular, boyunlarından asdıqları binoklların faydalılıq əmsalı sıfra bərabər oldu. Ən son olaraq bu il fevral ayının 12-də Zəngilan istiqamətində ermənilərin törətdiyi insident nəticəsində əsgərimizin yaralanmasına da reaksiya vermədilər. Halbuki bu adamlar qonağı olduqları ev sahibinin başına ağıl qoymalı, düzgün yolu göstərməli və son olaraq sərhəddəki təxribata görə erməniləri açıq qınaq obyektinə çevirməli idilər. Hər halda missiya üzvləri çörəyini zəhər edəcək qədər saf deyillər…

İndi bu cənablar, martın 11-də Sünik vilayətində avtomobil qəzasına düşüblər. Adama deyərlər sən hara, Cənubi Qafqaz hara? Ermənistanda nə itiyin itib ki, hələ bir burada qəzaya da düşəsən. Dünya dil öyrənir, öz üzərində işləyir, Avropa ilə bağlı xəyallar qurub ora qaçır, qərbli emissarlar da "regional sabitlik yaradırıq" adı altında bu torpaqlara sülhdən başqa hər şey gətirir. Bu adamların məqsədi heç də xalqlar arasında etimad quruculuğu yaratmaq, nə bilim xoş bir məram ortaya qoymaq yox, ancaq separatçılığı körükləmək, erməniləri revanşizmə kökləməkdir. Bunu dünya-aləm başa düşdü, təkcə haylardan başqa… Ermənistan, nəhayət, dərk etməlidir ki, şərti sərhədə hansı qüvvəni yerləşdirməsindən asılı olmayaraq, bu bölgədə son sözü cənab İlham Əliyev deyir...

**P.S.** Emissar (latınca emissarius – "nümayəndə") – başqa ölkəyə müəyyən qeyri-rəsmi tapşırıqla göndərilən dövlət, təşkilat və ya kəşfiyyat orqanlarının nümayəndəsi.



# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

“ Bu gün Azərbaycan çox sürətlə və uğurla inkişaf edən ölkədir. Bütün iqtisadi-sosial məsələlər həll olunur, dünyadakı mövqelərimiz möhkəmlənir, Azərbaycanın gücü artır və bu bizə imkan verir ki, sözün əsl mənasında, müstəqil siyasət aparaq. O siyasət ki Azərbaycan xalqının iradəsinə söykənir. Bu siyasəti Heydər Əliyev bizə göstəribdir və bu gün Azərbaycan onun yolu ilə uğurla inkişaf edir. ”

***Kəngərli rayonunda Ümummilli Lider Heydər Əliyevin abidəsinin açılış mərasimindən 5 oktyabr 2010-cu il***

# Naxçıvanın 20 yaşlı cavanı



Yaşı yüz illərlə ölçülən, torpağından qəhrəmanlıq ətri gələn, hər daşında ox nişanı olan, hər addımında vətənpərvərlik ruhu duyulan Naxçıvanın adı qədim, özü gənc 20 yaşlı Kəngərli rayonuna qədəm qoyduğumuz ilk addımda bu torpağın qəhrəman igidlərinin yolboyu sıralanan fotoları “qarşılayır” bizi. Şanlı Vətən savaşının qəhrəmanları İsmayılın, Təbrizin, Ülvinin, Həmidin gənc üzünə, gülən gözlərinə baxdıqca bir anlıq kədər bürüsə də, insanın ürəyini “Biz qələbə şəhidləriyik, Vətənin sülh göyərçinləriyik, biz bütöv Azərbaycanın qəhrəman oğullarıyıq” sədası eşidiləndə duyduğumuz kədər qürurla əvəz edilir. Kəngərlilərin – qəhrəman oğulların davamçıları, sizi bu millət heç vaxt unutmayacaq, – deyib tarixə nəzər salırıq.

***Tarixin tozlu səhifələrində Kəngərlilər***

“Naxçıvan tarixi” çoxcildliyinin ikinci cildində Naxçıvan xanlığının Kəngərli süvariləri haqqında deyilir: “Onlar haqqında fikir demək üçün gərək o qoşunları döyüş vaxtı müşahidə edəsən. Bunlar elə bil ki, qəzəblənmiş Allahın odu və ildırımıdırlar. Döyüş vaxtı göydən düşmənlərin lap mərkəzinə düşürlər, ölüm və dəhşət səpələyirlər”.

Ölkəmizin inzibati-siyasi xəritəsində kiçik bir yer tutan Kəngərli bölgəsi ta qədim zamanlardan özünün maddi mədəniyyət nümunələri, əvəzsiz tarixi-memarlıq abidələri, Vətəninə sədaqətli elm, mədəniyyət, hərb xadimləri ilə daim seçilib. Tarixçilərin apardığı araşdırmaların nəticəsində bəşəriyyətin ilk sivilizasiyasını yaradan Şumerlərin davamçıları da hesab edilən Kəngərli tayfaları Naxçıvanda Şərur rayonunun (hazırda Kəngərli rayonu) ərazisində Arazboyu maili düzənlikdə daha sıx məskunlaşıblar.

Kəngərlilər qədim türkdilli tayfalardandır. “Kəngər” sözü Aral və Balxaş gölləri arasında ortaya çıxıb. XV-XVI əsrlərdə Naxçıvan diyarı Qaraqoyunlu və Ağqoyunlu feodal dövlətlərinin, XVI əsrdə Səfəvilər dövlətinin tərkibində olub. Bu dövrdə Səfəvi şahları Naxçıvan diyarının idarə edilməsi hüququnu özlərinin ən güclü dayaqlarından olan Kəngərli tayfa başçılarına əmanət ediblər. Əsası 1747-ci ildə Heydərqulu xan Kəngərli tərəfindən qoyulan Naxçıvan xanlığı milli dövlətçilik tariximizdə mühüm yer tutub. İndiki Kəngərli rayonunun ərazisi kəngərlilərin yaşadığı qədim ərazi – Arazboyu düzənlikdən şimal-qərbdən cənub-şərqə doğru uzanır. Rayon şimal və şimal-şərqdən Dərələyəz dağ silsiləsinin qolları ilə əhatələnərək cənubdan Araz çayına doğru istiqamətlənir.

Kəngərli rayonu ərazisində qədim insanların əmək fəaliyyətini və həyat tərzini əks etdirən maddi mədəniyyət qalıqları ilə zəngin xeyli arxeoloji abidə var. Bu abidələr qədim yaşayış yerləri, qalalar, qəbiristanlıqlar, kurqanlar və memarlıq abidələrindən ibarətdir. Rayonun Qarabağlar kəndindəki Qarabağlar türbəsi əsrlərdir, tarixin və təbiətin ağır sınaqları ilə üz-üzə qalmışdı, abidənin bəzi hissələri uçub dağılsa da, öz mövcudluğunu qoruyub saxlamışdır. Abidə təmir-bərpa edilmiş və turistlərin ən çox ziyarət etdiyi yerlərdən birinə çevrilmişdir. Kəngərlilər tayfasının Azərbaycan xalqının etnogenezinin formalaşmasında böyük rolu olub. Səfəvilər dövlətinin dövründə Kəngərlilər dövlətin daxili və xarici siyasətində fəal iştirak ediblər. XVIII əsrin II yarısında Kəngərli hakimlərinin əksəriyyəti Azərbaycanda yüksək titullar daşıyıb.

Kəngərlilərin tarixini qiymətləndirən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin uzaqgörən siyasətini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev gerçəkləşdirib. 2004-cü ildə Kəngərli rayonunun yaradılması bunun ən bariz nümunəsidir.

***Adını tarixə qızıl hərflərlə yazan Kəngərlilərin ruhuna ehtiram***

Kəngərli rayonu 20 il əvvəl – 2004-cü il martın 19-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasında Kəngərli rayonunun yaradılması haqqında Azərbaycan Respublikasının Qanununu imzalaması ilə yaradılıb. Qanuna əsasən Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Qarabağlar, Yurdçu, Xok, Qıvraq, Şahtaxtı, Qabıllı və Yeni Kərki, Babək rayonunun isə Böyükdüz, Çalxanqala, Xıncab kənd inzibati ərazi dairələrini əhatə edən ərazilər yeni yaradılmış rayonun tərkibinə verilib. Qanunun digər bəndinə görə, Qıvraq kəndinə qəsəbə statusu verilərək rayon mərkəzinə çevrilib.

***Ömrünün baharını yaşayan Kəngərli gündən-günə gözəlləşir***

Bu gün muxtar respublikanın hansı kəndinə yolunuz düşsə, orada müasir görkəmə, təmizlik və abadlığa şahid olarsınız. Bu gün qürurla deyə bilərik ki, Kəngərli rayonunun abadlaşmayan bir kəndi belə qalmayıb. Yeni tikililər qədim Kəngərliyə yeni görkəm gətirib. Böyük dövlət qayğısı bu rayonu abad bir yurd yerinə çevirib. Qədim diyarın bütün yaşayış məntəqələrində müxtəlif infrastruktur layihələrinin həyata keçirilməsi, rayondaxili və kəndarası avtomobil yollarının yenidən qurulması, yaşıllıq zolaqlarının yaradılması bu bölgəni də əhatə edib.

Rayonun bütün yaşayış məntəqələrində kompleks quruculuq tədbirləri çərçivəsində, bütövlükdə, 98 kilometr yeni yol salınıb, 3 körpü, 5 meqavatlıq Günəş Elektrik Stansiyası qurulub. Quruculuq işləri bununla yekunlaşmayıb. Ötən illər ərzində, ümumilikdə, 5 min 257 şagird yerlik 12 məktəb, 210 yerlik uşaq bağçası tikilib, mədəniyyət sarayı, 2 muzey, şahmat məktəbi, 11 tibb müəssisəsi, 2 uşaq musiqi məktəbi, 10 kənd və 10 xidmət mərkəzi istifadəyə verilib. Tarixi abidələrin bərpası aparılıb, Şahtaxtı kəndində yerləşən köhnə hamam Qarabağlar kəndinin ərazisində olan Qarabağlar türbə kompleksi bərpa olunub. Rayon ərazisində 7 su nasos stansiyasının, eləcə də 2489,9 hektar ərazini əhatə edən qapalı suvarma şəbəkəsinin qurulması yüzlərlə hektar əkinə yararsız torpaq sahəsinin əkin dövriyyəsinə qatılmasına səbəb olub.

Rayon mərkəzi Qıvraq qəsəbəsində də geniş quruculuq işləri aparılıb, yeni sosial obyektlər, inzibati və yaşayış binaları tikilərək istifadəyə verilib.

Rayonun yaranmasının 15-ci ildönümündə Qıvraq qəsəbəsində yeni yaşayış binasının açılışı olub. 7 mərtəbəli, 48 mənzilli yeni yaşayış binasının ilk sakinləri Azərbaycan dövlətinin suverenliyi və ərazi bütövlüyünün qorunmasında xidməti vəzifələrini layiqincə yerinə yetirmiş və sağlamlığını itirmiş şəxslərdir.

Rayon statuslu inzibati ərazi vahidlərinin təşkili idarəçilik mexanizmlərinin yaradılması və formalaşdırılmasına əsaslanmaqla uzun illərin sərf olunduğu bir prosesdir. Ötən dövr onu göstərdi ki, Heydər Əliyev siyasi yolunun layiqincə davam etdirilməsi muxtar respublikada istənilən layihənin həyata keçirilməsinə imkan verir. Bu fikrin təsdiqini biz bu gün Kəngərli rayonunun simasında bir daha görürük.

***Torpağa sevgi, yurda bağlılıqla nailiyyətlər əldə olunub***

Ölkəmizdə, o cümlədən muxtar respublikamızda sənayenin və kənd təsərrüfatının inkişafı daim diqqət mərkəzindədir. Sənayenin şəhərlərlə yanaşı, bölgələrdə qurulması yeni iş yerlərinin yaradılmasına da öz töhfəsini verir. Rayona gəlmişkən sakinlərlə də söhbət etdik. Ailə təsərrüfatçısı, Qarabağlar kənd sakini Pakizə İsmayılova, heyvandarlıqla məşğul olan Böyükdüz kənd sakini Bəxtiyar Quliyev, Vətən müharibəsi şəhidi Həmid Qasımovun anası Tovuz ana ilə həmsöhbət olduq. Öyrəndik ki, bütün təşkilatlarda əhaliyə nümunəvi xidmət göstərilir, hər kəsin probleminin həllinə həssaslıqla yanaşılır. Sakinlərin işlə təminatı, rabitə xidmətindən istifadəsi, onlara lazımi səviyyədə tibbi xidmətin göstərilməsi diqqət mərkəzində saxlanılır. Təbii ki, bu da əhali tərəfindən yüksək dəyərləndirilir, insanların qurub-yaratmaq əzmini artırır. Kəskin kontinental iqlimə malik olan Naxçıvanda və onun Kəngərli rayonunda bir ağac yetişdirmək bir insanı boya-başa çatdırmaq qədər diqqət tələb edən bir işdir. Bu, vətənsevərlik, yurda bağlılıq, qurub-yaratmaq əzmi, böyük zəhmət, fədakarlıq tələb edir. Bu qədim yurdun zəhmətkeş insanları “ot bitməz” deyilən ərazidə yaşıllıqlar salıb, qurub-yaradaraq bir daha əzmkarlıq göstərirlər.

*İllər öncə, Kəngərli rayonu yeni yaradılanda, onun adı çəkiləndə qədim Qarabağlarda başı göylərə ucalan, Azərbaycan qadınına hörmətin, ehtiramın ifadəsi Qarabağlar türbə kompleksi, Azərbaycan tarixində azərbaycanlı kişisinin qeyrət və hünər dastanına dönən Kəngərli süvarilərin igidliyi yada düşürdü. Bu gün Zəfər tariximizdə şanlı qələbənin qazanılması yolunda bəy paltarını kəfənlə dəyişən qəhrəman Kəngərlilərin davamçıları olan oğullar yaddaşlara iz salır. Tarixin qəhrəmanlarının davamçıları olan oğulların sayəsində Kəngərli tayfalarının şücaəti və qəhrəmanlığı bu gün də hər kəsi heyrətə gətirir.*

**Ramiyə ƏKBƏROVA**

# NOVRUZ bayramınız mübarək!



## Novruzun baharı

### *Müqəddəs duyğularla bayram tonqalı başında*

Orada göz görür, könül sevir. Orada oğul qılınc qurşanır baba qeyrəti üçün. Orada el ozanları var əllərində qolça qopuz. Orada yüyrək atlar çapırlar. Orada ərlər, ərənlər bilir ki, Azərbaycanın ən qədim yaşayış yeri Naxçıvan bəşəriyyətin ən sirli tarixini özündə ehtiva edən yurd yeridir. Qədim rəvayətlərə görə, Nuhun gəmisi Gəmiqayada quruya çıxdıqdan sonra qaranquşun gətirdiyi xoş xəbər gəmi sakinlərinin ən xoş günü olub. Onların quruya çıxdığı həmin vaxt mart ayına təsadüf edib və "Nuhruz" yəni "Nuh günü" adı ilə qeyd olunub.

Yeni həyat başlandığı gün səməni cücərdilər, yüksək dağ zirvələrində tonqallar qalanar, sübh Günəşi görünməmiş bulaq başına gedilər, su üstündən tullanaraq "Ağırlığım, uğurluğum düş bu suyun üstünə", yaxud da tonqal üstündən tullanaraq "Ağırlığım, uğurluğum düş bu odun üstünə" kimi sözlərlə bayramın ilk gününü qarşılayırmışlar. Min illər keçməsinə baxmayaraq, bu adət-ənənə indi də Azərbaycanda, əsasən də, tufan sularının ilk çəkildiyi ərazi – Ordubadda geniş şəkildə qeyd olunur. Bu torpağın insanları babalardan qalma müqəddəs nə varsa milli mentalitetlərində yaşadıb, kollektiv rəqsin kökü olan yallı ilə əl-ələ tutaraq daim həmrəylik göstəriblər. Torpaq təmizlənib, yer şumlanıb, küsülülər barışıb, tonqallar qalanıb, səməni cücərdilib, nəhayət, canlı yaranışın bir nümunəsi olan yumurta boyama kimi adətlər həyata keçirilib.

Odun, atəşin qeyri-adi güc, qüdrət kəsb etməsi, düşmənə üstün gəlməsi, məğlubedilməzlik keyfiyyətinə sahib olması barədəki mifik təsəvvür Azərbaycan folkloruna zaman-zaman geniş şəkildə sirayət edib. Od adi od kimi, qaladığımız ocaq kimi, əlimizi yandırıb-yaxan istilik kimi xatırlanmır, əksinə, hər zaman müqəddəs duyğularla anılır. Azərbaycan xalqı odu atəşpərəstlikdən, zərdüştlükdən də öncələrdə qoruduğu, sirlərini, ifadə etdiyi, ən əsası, tapındığı vasitə kimi yaşadaraq bu günümüzə çatdırıb. Bu səbəbdən də bayram tonqalını həyətin girəcəyində qalayır ki, həyətə gələn özüylə ağırlıq gətirməsin. Xalqın özü məsəl çəkir: "Od yuduğunu su yumaz", "Odsuz ocaq olmaz", "Oda pənah aparanın ocağı sönməz", "Odu, çırağı yandıran xeyir aparar", "Od küllə gizlənər", "Ocaq sönməyən yerdə məskən salarlar". Od həm də ulularımızın and yeri olub: Od haqqı, Gün haqqı, Çıraq haqqı.

Doğrudan da, oddan sonra adam özündə yüngüllük hiss edir. Sanki tonqalın alovu hamıya rahatlıq, dinclik gətirir. Novruz bayramı ərəfəsində elə bil odun ilkinə – doğuluşuna qayıdılır. İçimizdə oda tapınmaq, oda sığınmaq istəyi yenidən və yenidən yaranır. Elimizdə bayram tonqalları qalanarkən könlümüzə, ruhumuza su səpə-səpə bizi sabahlara uğurlayır. Od çərşənbəsində qaladığımız tonqalın alovu yaşadığımız və hiss etdiyimiz bütün zamanlardan bizə daha yaxın, daha səmimi, daha istiqanlıdır. Bütün başlanğıclarda, doğuluşlarda olduğu kimi, təmiz, arı və durudur. İldırım çaxması zamanı əldə edilən od soyuğu dəf etdiyi kimi, ətrafı isidərək insanı zərif ruh tək oxşayır.

Bu inanclar zaman-zaman xalq təbabətində öz əksini tapıb. Yeni doğulmuş körpəni külün üstünə qoyardılar ki, xəstəlik tapmasın. Bu inamın izi "Çevir ocağa, al qucağa" atalar sözündə yaşadılır. Həmçinin bununla bərabər yaraya ocaq külü bağlayardılar ki, yara tez sağalsın və yaxud odla dağlayardılar. Ulusumuzda odun qüdrətinə inam o dərəcədə güclü olub ki, Novruzda yataq xəstələri belə yaxınlarının köməyi ilə azı üç dəfə tonqalın üstündən keçirilirmiş. Ahıl insanlar böyük tonqaldan atıla bilmədiyi üçün ocaqdan götürülən və aralıda qoyulan odun üzərindən addımlayaraq keçərmişlər.

Oda sevgi, inam insanlarda o qədər güclü olub ki, ona and içiblər, alqışlar qarğışlara qarışıb. Ulularımız deyir ki, insan odu nə qədər əzizləsə, bir o qədər yüngül olar, çətinlikləri azalar. El deyiminə görə, Od çərşənbəsində ocaq yandırıb, qazan qaynatsan, ilin sonuna qədər ocağın yanar, qazanın qaynar olar. Belə hesab edirlər ki, Od çərşənbəsində qaranlıq düşəndə ona görə gur tonqallar qalanır ki, dünyadan köçən ruhlar öz evlərini rahat tapsınlar. Onlar damda oturub ev-eşiyə tamaşa edirlər. Görəndə ki, səliqə-sahman var, nəvə-nəticələrinin ocaqlarında qazanlar qaynayır, üzlər gülür, hamı can deyib, can eşidir, o evdən xoş gedib-gələn ilin axır çərşənbəsində yenə gələrlər.

Deyirlər, axır çərşənbə tonqalı ilə Novruz tonqalı arasında fərq var. Bu fərq ona görədir ki, axır çərşənbə tonqalı getməkdə olan ili yola salmaq üçün, Novruz tonqalı isə torpağın oyanışının şərəfinə yandırılır. İnsanlar axır çərşənbənin odu ilə bütün ağırlıqlarını uğurladığı halda, Novruz tonqalı ilə hər cür dərddən-bəladan, ağırlıqlardan, çilədən təmizlənir. Novruz tonqalından atılanda dərd-azarımızın odda yanacağına inanırıq. Novruz türk xalqlarının, bəlkə də, yeganə bayramlarındandır ki, bu əziz günlərdə böyüklü-kiçikli hər kəsin qəlbi bahar təravəti, yaz duyğuları, aşıb-daşan sevinc, yüksək əhvali-ruhiyyə ilə dolur, ruhumuz yenidən oyanır.

Bu gün tarixin dolanbac künc-bucağında yadelli işğalçıların yağmalarına dözüb divlər sarayında nər igidlər böyütmüş, qoynunda Xudafərini bəsləmiş, əlçatmayan, ün yetməyən, quşqonmayan müqəddəs yurd yerlərimizdə Qarabağ və Şərqi Zəngəzurda, Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə bayram tonqalları qalanıb. Yoxluğunun ağrısında mərd oğulların hicrana dözməyib 30 illik ayrılıqdan sonra başını almış qara buludları od olub yandırdı, şimşək olub doğradı. Bununla da yetinməyib torpağına yeni nəfəs, göyünə sonsuz mavilik qatdı. İndi körpə fidanlar səs-səsə verib qıy vuraraq torpağın, daşın, qayanın yaralarını sarır, incə, xəfif toxunuşlarla ruhuna məlhəm olur.

Xocalım, Xankəndim, Şuşam, Laçınım, Zəngilanım, Füzulim və daha adlarını çəkə bilmədiyim müqəddəs torpaqların sakinlərinin "Gün o gün olsun, Novruzu öz elimizdə qeyd edək" kimi arzuları artıq bu tonqal başında gerçəkləşib. And yerimiz – tonqalımız. Səndə neçə-neçə oğulların ruhu yatır indi. Keçən qışın, gələn baharın isti nəfəsi yatır. Şölələrinlə göylərə nur saçırsan. Nuru və işığı dünyaya sən salırsan. Qordan doğulmuş, qor olmuş, ocaqlaşmısan. Sən Azərbaycan torpağına özək olan, kök olansan. Düşmənlərə gözdağı, ürək yarasısan. Mən də bu əziz gündə uşaq kimi sevinir, içimdən gələnləri duaya dönüşdürərək deyirəm: "Novruzun baharı müqəddəs duyğularla bayram tonqalı başında yaşını yenidən tarixə qatıb, tarix olan, qədimləşən diyarım, bayramın mübarək!"

✍ **Fariz ƏHMƏDOV**

Xocalım, Xankəndim, Şuşam, Laçınım Zəngilanım, Füzulim və daha adlarını çəkə bilmədiyim müqəddəs torpaqların sakinlərinin "Gün o gün olsun, Novruzu öz elimizdə qeyd edək" kimi arzuları artıq bu tonqal başında gerçəkləşib. And yerimiz – tonqalımız. Səndə neçə-neçə oğulların ruhu yatır indi. Keçən qışın, gələn baharın isti nəfəsi yatır. Şölələrinlə göylərə nur saçırsan. Nuru və işığı dünyaya sən salırsan. Qordan doğulmuş, qor olmuş, ocaqlaşmısan. Sən Azərbaycan torpağına özək olan, kök olansan. Düşmənlərə gözdağı, ürək yarasısan. Mən də bu əziz gündə uşaq kimi sevinər, içimdən gələnləri duaya dönüşdürərək deyirəm: Novruzun baharı müqəddəs duyğularla bayram tonqalı başında yaşını yenidən tarixə qatıb, tarix olan, qədimləşən diyarım, bayramın mübarək!

## Ordubadda özünəməxsus ənənələrlə qeyd edilən Novruz bayramı







Xalqımızın qədim adət-ənənələrini, milli-mənəvi dəyərlərini özündə yaşadan Novruz bayramı muxtar respublikamızda da özünəməxsus təmtəraqla, yüksək şövqlə qeyd edilir. Təbiətin oyanışını, gecə ilə gündüzün bərabərləşməsini, əkin mövsümünün başlanmasını, yazın gəlişini özündə təcəssüm etdirən, bənövşə, nərgiz ətirli bu bayram insanlarda xoş əhvali-ruhiyyə yaradır. Qədim diyarımızın Ordubad bölgəsində deyərlər ki, tut sovuşanacan, gilas ağaranacan Novruzdur.

Hər il Novruz bayramı bu rayonda daha fərqli şəkildə keçirilir. İlaxır çərşənbə axşamı evlərin həyətində tonqallar qalanır. Həmin gün insanlar ən gözəl libaslarını geyinir, günü çox şən keçirirlər ki, il uğurlu və düşərli olsun. Ürəklərindən keçən arzuları, niyyətləri tutub alovun üstündən tullanırlar. Bu zaman deyilər: "Ağırlığım, uğurluğum odlara, yazda mənlə hoppanmayan yadlara və ya ağırlığım, uğurluğum bu odda yansın". İnanca görə, odun üstündən tullanan şəxs ilboyu xəstələnməz, dərd, qəm ondan uzaq durar. Axır çərşənbədə hər bir ailə çalışar ki, yandırdığı tonqalın alovu hündürə qalxsın. Bunun ailəyə uğur gətirəcəyinə inanılar. İlaxır çərşənbə Ordubadda həm də "Yeddiləvin" adlanır. Bu, xalq təqviminə görə, köhnə ilin tamam olub, yeni ilin başlandığı vaxtdır. "Yeddiləvin" günü süfrələrə 7 adda cürbəcür nemətlər düzülər. Səhər sübh tezdən insanlar gedib çaylarda, arxlarda, bulaqlarda əl-üzlərini yuyar, su üstündən adlayar, çay daşlarından yeddisini gətirib evin hər küncünə qoyarlar. "Çərşənbə suyu"ndan insanlar arasında bir-birinin üstünə çiləmə adəti də icra olunar. Su aydınlıq, paklıq, təmizliyə çıxmaqdır. Həmin gün evdə bütün su qablarını boşaldıb yerinə "çərşənbə suyu" doldururlar. Rayonun Tivi kəndində həmin gün çalçağır olar, yuxarı kəndlərdən də gəlmiş 20-30 atlı bir-biri ilə yarışar. Sonda hədəfə daha tez çatan atlı müxtəlif hədiyyələrlə mükafatlandırılar. Vənənd kəndində də başqa bir ovqat yaşanar həmin gün…

Martın 21-nə keçən gecə geniş süfrə açılar və üzərinə müxtəlif nemətlər düzülər. Geniş süfrə açmaqda məqsəd bolluq, bərəkət dolu bir ilə qədəm qoymaq, eyni zamanda bayram günlərində görüşə gələn qohum-qonşuları qonaqpərvərliklə qarşılamaqdır. Bayramın birinci günündən başlayaraq hamı bir-birinə "Bayramın mübarək olsun!" və ya Ordubad ləhcəsi ilə "Yengilin (yəni yeni ilin) mübarək", – deyər, qarşılığında eyni cavabı alar. Uşaqlar isə bayramın birinci günü qapı-qapı gəzib, uca səslə "Bayramınız mübarək, neçə belə illərə çıxasınız", – deyər, əvəzində ailədən bayram payı, rənglənmiş yumurtalar alarlar.

Bayramda küsülülər barışar, inciklikl ər unudular. Martın 21-dən etibarən bayram görüşləri başlayır. Gənclər, eyni zamanda kişilər və qadınlar özlərindən böyük bacı-qardaşlarının, valideynlərinin, ağsaqqalların, ağbirçəklərin görüşünə gedər, onlara hörmət əlaməti olaraq bayram payı, əgər evdə balaca uşaq varsa, mütləq boyanmış yumurta aparırlar. Novruz bayramında yumurta oyunları böyük maraq doğurur. Kimin yumurtanı əlində və necə saxlayacağı, kimin isə üstdən və necə vuracağı razılaşdırılır. Yumurta döyüşdürərkən uduzan tərəf öz yumurtasını qalib gələnə verir.

Ordubadda bayram tədbirinin yaddaqalan və maraqlı personajı Xandır. "Xanbəzəmə" oyunu böyük-kiçik hər kəsin sevdiyi oyunlardan biridir. Ordubad şəhərinin "Sərşəhər" meydanında Xan bəzədilir. Bir nəfər hündürboy, zəhmli adamı Xan kimi bəzəyib taxt-taca əyləşdirirlər. Xan meydana at üstündə daxil olur. Ətrafındakı vəzir, vəkil, üç fərraş, bir cəllad isə onu qoruyur. İki nəfər yelpiklə Xanı yelləyir. "Yaraqlı-yasaqlı" fərraşlar Xanın hüzurunda əmrə müntəzir dayanırlar. Cəllad qırmızı libasda, əlində balta meydanın aşağı başında gözləyir. Kosa ilə Keçəl tez-tez meydana girib Xanı güldürməyə çalışırlar. Xan çox ciddi görkəmdə olmalı, oyunun şərtinə əsasən gülməməlidir. Əgər gülərsə, Xanı ciddi cəza gözləyir. Üç gün ərzində bütün göstərilən məzəli hərəkətlərə dodağı belə qaçmayan Xan rolunu icra edən şəxs əhali tərəfindən mükafatlandırılır.

Xoş arzuları, gözəl istək və dilləkləri tərənnüm edən Novruz həm də Kosası, Keçəli, Bahar qızı ilə əlamətdardır. Kosa və Keçəl məşhur personajlar kimi bayrama xüsusi rəng qatırlar. Gözübağlıca, kəndirbaz oyunlarında Keçəl öz məharətlərini sərgiləyir. Koskosa oyunu bayrama xüsusi maraq qatır. Cavanlar bir yerə toplaşır, Kosanı hazırlayır, bir çömçəni qırmızı bəzəyib ona verir və bu mahnını oxuyurlar:

*Ay kos-kosa, gəlsənə,*
*Gəlib salam versənə,*
*Çömçəni doldursana,*
*Kosanı yola salsana...*

İkinci Qarabağ müharibəsindən sonra bayrama əlavə çalarlar qatılması muxtar respublikamızın bütün bölgələrində şəhid və qazi ailələrinə böyük ehtiramın ifadəsinə çevrilib.







### *Təbiətin nazlı gəlini, incəbelli SƏMƏNİ*

Təbiətin oyanması və bitkilərin canlanmasının rəmzlərindən biri də səmənidir. Səməni buğda, arpa, noxud, mərci və digər dənli bitki məhsullarından hazırlanır. Naxçıvanda, adətən, bayrama iki həftə qalmış buğdadan səməni qoyulur. Bunun üçün buğda suya salınır. Suda bir gün qaldıqdan sonra nazik bir tənzifə tökülür. Hərdən sulanır və sulayanda da çevrilir ki, buğda yaxşı cücərsin. Buğda çırtlayanda sini, məcməyi, yaxud boşqaba sərilir, üstü dəsmal və ya tənziflə örtülür. Üzərinə gündə iki dəfə su çilənir. Səməni isti yerdə, təqribən, bir həftə, on günə kimi göyərir. Yaşıl rəngi ilə hər evə gözəllik bəxş edən səməninin "incə beli" qırmızı lentlə bağlanılıb Novruz süfrəsinin ən görkəmli yerinə qoyulur.

Təzə səməniyə mahnılar qoşulub oxunur:

*Səməni, ay səməni,*
*Göyərdərəm mən səni.*
*Sən gələndə yaz olur*
*Yaz olur, avaz olur...*

Səməni həm də əkinin, məhsul bolluğunun simvoludur. "Səməni, saxla məni, ildə göyərdərəm səni", – deyə ona vəd edərək hər il bolluq yaradılacağına söz verilir. Bayram bitdikdən sonra səməni təmiz, axar suya atılır. İnanılır ki, bu zaman niyyət edən insan növbəti ilədək arzusuna çatır. Bu ənənə bir çox bölgələrimizdə, xüsusilə Ordubadda yaşadılır.

Bayram günlərində hazırlanan səməni (horra) xüsusi dadı ilə seçilir və sağlamlıq üçün faydalıdır. Belə bir adət də var ki, hüzrlü olanlara, bayram keçirə bilməyənlərə İlaxır çərşənbə və ya Novruz axşamı səməni xonçası göndərilir. Xonçaya bayram üçün hazırlanmış nemətlərdən qoyulur və ətrafına şamlar düzülür. Bu şamlar ailəni hüzndən, yasdan çıxarmaq məqsədilə hüzrlünün evində yandırılır. Novruzla əlaqəli el şənliklərində oynanılan "Səməni" ən qədim rəqslərimizdən biridir. Baharın gəlişinə həsr edilmiş ənənəvi şənlik rəqsini yalnız qadınlar və qızlar oynayarlar. Rəqs əl çalınmaqla müşayiət olunar.

Novruzun əsas atributlarından olan səməni bayram bitənə qədər hər kəsin evini, süfrəsini bəzəyir.

### *Bol, bərəkətli bayram süfrəsi*

Novruz süfrəsi üçün bir neçə gün öncədən hazırlıqlar başlayır. Zəhmətkeş, bacarıqlı naxçıvanlı xanımlar müxtəlif şirniyyatlar, kökələr bişirirlər. Bu, qədim adət və ənənələrimizin bu gün də yaşadılmasına nümunədir.

Milli mətbəx mədəniyyətinin mühüm tərkib hissəsini təşkil edən Naxçıvan mətbəxi içərisində yenə də Ordubadda hazırlanan yeməklərin, şirniyyatların xüsusi yeri və rolu vardır. Novruz süfrəsini bəzəyən paxlava, şəkərbura, badambura, qayğanaq, cəvizli dürmək Ordubadda hazırlanan ləziz təamlardır. Rayonun bir çox kəndlərində cəvizli paxlava məcməyidə hazırlanaraq təndirdə bişirilir, hazır olduqdan sonra üzərinə gülab qatılmış şərbət gəzdirilir və süfrəyə gətirilir. Şəkərbura isə üzərindəki incə, dolğun naxışları ilə seçilir. Onun kənarlarının bükülməsinə, üzərinin naxışına, bişərkən çox qızarmamasına, yumşaqlığına diqqətlə yanaşılır. Badamburanın özünəməxsus görünüşü var. Onun içərisinə çəkilmiş badam, cəviz və şəkər tozunun qarışımından hazırlanmış içlik doldurulur. Sonda qat-qat badambura alınır ki, üstünə şəkər tozu səpilir. Kətə formasında kəsilən cəvizli Ordubad dürməyi də bayramda bişirilən şirniyyatlardandır. Novruz bayramı ərəfəsində təndirdə bişirilən kökənin (çöçə) dadı isə əvəzedilməz olur. Novruzda evə gələn qonağa adı dillər əzbəri olan Ordubad limonu ilə çay təqdim edilir.

Novruzda Ordubad qayğanağı, əsasən, nişanlı qız və oğlanın evinə xonça apararkən bişirilir. Bayram süfrəsinə Ordubad mətbəxinə məxsus müxtəlif növdə çərəzlər də düzülür. Sucuq, miyanpur, alana həm görünüşü, həm də dadına görə seçilir. Sucuq cəvizdən, miyanpur ərik, şaftalı, eləcə də əncirdən, alana isə şaftalı və armuddan hazırlanır. Qovurğa da süfrənin əsas çərəzlərindəndir. Sacda qovrulmuş buğdaya küncüd, cəviz, fındıq ləpəsi (qovrulmuş halda) qatılır. İlaxır çərşənbə axşamı papaq atan uşaqlara da bu qovurğadan pay verilir. Süfrədə boyadılmış yumurtanın, cücərdilmiş səməninin də öz yeri vardır. Ordubadda bayramda süfrəyə gülab da qoyulur. Bayramlaşma zamanı bir-birinin əlinə gülab suyu səpmək adəti bu gün də yaşadılır.

Qədəmlərin mübarək olsun, Novruzum! Gəlişinlə elimizə sülh, əmin-amanlıq gətir. Süfrələrimiz ruzi, bərəkətlə dolsun. Bu bayram hamımız üçün düşərli olsun!

✍ **Güntac ŞAHMƏMMƏDLİ**





*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Naxçıvan şəhərindən olan şəhidimiz Elcan Balabəylinin anası Səkinə Hüseynovanın, Şərur rayonunun Axaməd kəndindən olan şəhidimiz Ənvər Əliyevin anası Gövhər Əliyevanın və Culfa rayonunun Yaycı kəndindən olan şəhidimiz Daşqın Rzalının anası Gültəkin Abdullayevanın övladları haqqında xatirələri yer alıb.*

# 100 ilin qəhrəmanları

## Elcan Vasif oğlu Balabəyli

*(12.03.1992-19.09.2023)*



### Qisasını alan şəhidim



Elcan çox ağıllı, çox sakit idi. Məktəbdə də elə idi. Heç bir müəllim ondan şikayət etmədi. Yaxşı da oxuyurdu. Mənim iki oğlum var. Heç birinə hirslənməmişəm. Elə demişəm ki, yaxşı oxuyun. Məktəbdən gələndə pəncərədən baxırdım. Elcan məni görən kimi əli ilə beş göstərirdi. Yəni ki, beş almışam. Bir gün məktəbdən gəldi. Başını aşağı salıb evə girdi. Dedim ki, Elcan iki almısan, yəqin. Dinmədi. Dedim ki, onda üç almısan, başını tərpədib yenə "yox" dedi. Ağlamağa başladı. Dedi ki, ana, dörd almışam. Qucaqlayıb öpdüm. Dedim ki, dədə, dördə niyə ağlayırsan. Dedi ki, mən sənə söz vermişəm axı. Mən sənə beş gətirəcəyəm.



Keçən yeni ildə məni Bakıya apardı. Yeni ili qeyd etdik. Amma bu il məni yeni ildə tək qoydu Elcanım. O mənim yanıma yox, mən onun məzarı başına getdim.

44 günlük müharibədən sonra Elcanla birlikdə şəhid videolarına baxırdıq. Dedim, analar, görəsən, bu dərdə necə dözürlər? Dedi ki, ana, yox. Pis görünür. Analar belə ağlayan yox, məğrur olmalıdırlar. Sanki məni bu günə hazırlayırmış. Elcanın nəşi gələndə oğlum Elçin içəri girib dedi ki, ana, qaqaşın dediyi yadından çıxmasın.

Elcan Vətən müharibəsində iştirak etmişdi. Qazi olmuşdu mənim balam. Nə qədər dedim ki, bala, çıx gəl. Dedi ki, ana, mənim əsgərlərim qucağımda şəhid olub. Mən necə gəlib evdə oturum? Axı onların qisasını almalıyam. Deyirdim ki, ay bala, yaralanmısan axı. Cavab verirdi ki, ana, şəhidlərimizin, qolunu, ayağını itirən qazilərimizin qabağında elə danışma. Dedi və özü də şəhid oldu. Qollarında şəhid olan dostlarına qovuşdu mənim Elcanım! Bir sözü vardı, tez-tez deyirdi ki, mən anamsız bir dəqiqə də olsun, yaşaya bilmərəm. İndi gəlib görsün ki, anası onsuz necə yaşayır.

## Ənvər Nizami oğlu Əliyev

*(04.06.1997-14.10.2020)*

### Vətənin igid oğlu



Ənvər həm dəcəl, həm də mehriban idi. Bir iş görən zaman baxırdım ki, yanımdadır. Evimizin sonbeşiyi idi. Yaxşı oxuyurdu. Qardaşı Ənvərdən bir yaş böyük olsa da, məktəbə bir yerdə gedirdilər. Müəllimi Ənvərə deyirmiş ki, sən dərsi iki dəfə danışacaqsan. Birinci dəfə sənə, ikinci dəfə qardaşına qiymət verəcəyəm. O qədər oxuyurdu ki, gözləri qızarıb, ağrıyırdı. Mən də deyirdim ki, Ənvər belə çox oxuma. Cavab verirdi ki, hər kəsin anası uşağının oxumasını istəyir. Sən isə deyirsən az oxu. Deyirdim ki, Ənvər, axı gözlərin ağrıyır. Deyirdi ki, ana, heç nə olmaz.



Əkrəmlə (qardaşı) bir sinifdə oxuyurdular. Ənvər dərs oxuyurdu. Əkrəm ona dərs oxumağa imkan vermirdi. O da durub qardaşı ilə savaşırdı. Deyirdim ki, Ənvər, qardaşını vurma, xəstədir. Gülürdü, deyirdi ki, ana, niyə xəstədir? Mən də gülürdüm, deyirdim, a bala, deyirəm, yəni başı ağrıyar. Başlayırdı gülməyə. Amma buna baxmayaraq, bir-birlərini çox sevirdilər.

Bir dəfə atasına balaca kol almaların tingini vermişdilər. Həmin kol bir alma gətirmişdi. Atası dedi ki, dərməyin görək, yetişdikdə necə olur. Bir gün atası baxdı ki, alma dərilməyib, amma üstündə dişlənib. Gəlib evdə deyən kimi Ənvər tez dedi ki, ata, dərmədim ki, üstündə dişləmişəm. Bax belə dəcəl idi mənim balam. Onun xatirələrindən o qədər danışmaq olar ki.



Balaca vaxtından elə deyirdi ki, ana, mən ya hərbçi olacağam, ya da gömrükdə işləmək istəyirəm. Çox xoşuma gəlir onlar kimi geyinəm, işləyəm. Böyüdü, səkkizdə oxuyanda sənədlərini hərbi liseyə verdi.

Müharibə vaxtı danışırdıq. Hər zaman deyirdi ki, ana, mən döyüşdə deyiləm. Yol açırıq, elə gözəl yollar salmışıq ki. Müharibədən sonra səni gətirəcəyəm o yollara bax. Demə, mənim balam mina təmizləyərək yol açırmış. Bir gün də zəng vuranda top, silah səsləri gəldi. Tez telefonu söndürdü. Sonra zəng vurdu ki, narahat olma, silahı Gəncə tərəfə atırlar, buradan səsi eşidilir. Ənvər elə həmin vaxt Talış kəndindəymiş.

Sonuncu dəfə 12 oktyabrda zəng vurdu ki, ana, sən qəhrəmanın anasısan, haqqını halal et, İnşallah, görüşərik. 14 oktyabrda Ənvər Suqovuşanda şəhid oldu. Balam "Vətən, torpaq", – dedi!

## Daşqın Elşad oğlu Rzalı

*(27.05.1993-21.10.2020)*





### Torpaqlarımızı qəhrəmancasına azad edən şəhidimiz

Daşqın balaca vaxtından atasını itirib. Əkiztayı idi. Balaca vaxtlarından qardaşı Coşqunun qayğısına qalırdı. Evdar uşaq idi. Sakit və səssiz idi. Məktəbdə oxuduğu dövrdə də bir dəfə müəllimləri ondan narazı olmayıb. Düzdür, Daşqın ali təhsil alacaq qədər yaxşı oxumasa da, tərbiyəsi ilə məktəbin sevimlisi olub.

İdmana çox maraq göstərirdi. Cüdo idman növü ilə məşğul olurdu. Məktəbdən gələn kimi çantasını evə qoyub cüdoya gedərdi. Naxçıvan birincisi olub mənim balam. Hətta üç medalı da var. Əsgərlikdən sonra da cüdoya davam edirdi.

Sonuncu dəfə danışığımızdan mən əmin oldum ki, Daşqın müharibədə deyil. Gedirdim qızımgilə. Qızımın yoldaşı mənə təsəlli verərək deyirdi ki, niyə narahat olursan. Daşqın sərhədçidir. Müharibədə deyil.

Şəhid olan günü iki dəfə zəng etdi. Bir səhər, bir də axşamüstü. Dedi ki, ana, neyləyirsən. Dedim ki, Daşqın, bacıngildəyəm. Dedi, ana, ver onlarla da danışım. Hamısı ilə danışandan sonra dedi ki, telefonu ver Elnura. Elnur bacısı oğludur. Dedi ki, Elnur, dərslərini yaxşı oxu. Gəlib sənə maşın alacağam. Sağollaşdı. Bu, Daşqınımın sonuncu danışığı oldu.



Qardaşı Coşquna çox bağlı idi. Birdən deyirdim ki, Coşqun belə elədi. Deyirdi ki, ana, Coşqunun gileyini mənə eləmə. Əgər darıxırsansa, gəl mənimlə yaşa. Amma Coşqundan heç nə demə. O qədər çox sevirdi qardaşını.

Döyüş yoldaşları deyirdilər ki, biz onun yanında özümüzə şəhidlik arzulayırdıq. Daşqın bizimlə razılaşmırdı. Deyirdi ki, mən şəhid olmaq istəmirəm. Siz də şəhid olmayın. Birlikdə qəhrəmancasına döyüşüb Azərbaycan torpaqlarını azad edək.

Bizim şəhid balalarımızın hər biri qəhrəmandır. O qədər mərd, igid idilər ki, Vətəni, xalqı biz analarından üstün tutdular. Mən Daşqınımla fəxr edirəm. Qürurla: "Mənim balam qəhrəmandır, şəhiddir", – deyirəm. Vətən sağ olsun!



# Şəfqət və mərhəmət duyğularının təntənəsi

## RAMAZAN ayı

Artıq bir neçə gündür ki, müqəddəs Ramazan ayının nuru ilə ruhumuz, qəlbimiz, evimiz, elimiz, yolumuz aydınlanır. Bu mübarək ay oruc tutmaqla ruhən paklaşan müsəlmanlar bununla həm İslam dininin əsas qaydalarından birini yerinə yetirir, həm də bir ay nəfsinə qarşı öz iradələrini sınayırlar. Bu bir növ Allaha sevginin, bağlılığın ifadəsidir, Uca Yaradanın qarşısında itaətkarlıq və bəndəliyi izhar etməkdir. Şəhri ramazanda oruc tutanlara sonsuz fərəh və iman sevgisi bəxş edilir. İnsanları Allahın lütfünə daha da yaxınlaşdıran bu müqəddəs ay onlara yüksək mənəvi dəyərlər, ali bəşəri hisslər təlqin edir. Uca Allah ramazanda insanlara, belə demək mümkündürsə, daha çox savab qazanmaq, günahlarının bağışlanması üçün fürsət yaradır, qəlblərində xoş əməllərə meyli artırır, nəfsə və şərə qalib gəlməyin və ədalətsizliyi islah etməyin yollarını göstərir.

Mərhəmətli qəlblərin, duyğulu könüllərin, Ulu Tanrının dərgahına səmimi hisslərlə, sonsuz arzularla əl açıb dua edənlərin əziz ayıdır, Ramazan. Bu ay sanki göy üzündən yer üzünə rəhmət, bərəkət, sevgi yağır. İnsanlar arasında birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin, ilahi hikmətə bağlılığın təntənəsi daha çox bu ayda təcəssüm olunur. İnsan Allaha qəlbən sevgi və bağlılıq hissini bu ayda daha dərindən duya bilir. Bu hisslərin sərhədsiz, hüdudsuz olduğunu bütün varlığı ilə dərk edir. Əgər tutduğumuz orucda səmimiyyət ətri, Yaradana pak sevgi hissi duyulursa bu hisslər insanı saflaşdırır, onu xoş əməllərə səsləyir.

Ramazan ayında diqqət edəcəyimiz bir çox məqamlar var. Bu ayda əlimizə, gözümüzə, dilimizə hakim olmaq, nəfsimizi qorumaq kimi öhdəliklərimizdən ziyadə, diqqət edəcəyimiz əsas məqamlardan biri də düzgün qidalanmaqdır. Mütəxəssislər hesab edirlər ki, oruc tutanların özlərini daha gümrah hiss etmələri üçün iftar süfrələrinin dəyərli qidalarla zəngin olması vacibdir. Ramazan ayında keyfiyyətli qidalanmaq zəruridir. Belə ki, suya və qidaya olan tələbatı ödəmək üçün imsakda mütləq yemək lazımdır. Çünki imsakda qida qəbul etməmək, bütün günü ac qalmaq, ya da axşama kimi yatmaq, axşam iftar zamanı isə normadan artıq və fasiləsiz qida qəbul etmək həm dini nöqteyi-nəzərdən, həm də tibbi baxımdan düzgün deyil. İmsakda insanlar ona enerji verəcək qidalar yeməlidir. Oruc tutanlar, ilk növbədə, duzlu qidaları siyahıdan çıxarmalıdır. Mütəxəssislər deyirlər ki, səhər yataqdan duran kimi iki stəkan su içmək insanı gün ərzində xoş əhvali-ruhiyyədə saxlayır. Əgər səhər düzgün qida qəbul etsək, gün boyu həm su, həm qidalanma, həm də enerji balansımızı iftara qədər qorumuş olarıq.

İftar zamanı isə, ilk növbədə, süfrə mədəniyyətinə əməl etmək lazımdır. İftar açmağın da öz qaydaları var. Oruc bir stəkan su ilə açılır. Həkimlər deyirlər ki, iftardan öncə bir stəkan su mədəni rahatladır. Bir neçə dəqiqə sonra isə hazırlanan yeməkləri yemək olar. Menyuda sulu yeməklərin olması vacibdir. Əlbəttə, biz təkcə imsak və iftar qaydalarına əməl etməklə oruc sayılmırıq. Əgər bir ay sonra nəfsimizə sahib çıxa bilmədiyimiz həyatımıza davam ediriksə, deməli, ramazanda ac qalmaqdan savayı heç bir savab iş görməmişik.

Ramazan Allahı dərk etmək, ruhən təmizlənmə və Uca Yaradana yaxınlaşma ayıdır. İnsanlara doğru yol göstərən, haqqı batildən ayıran müqəddəs kitabımız "Qurani-Kərim"in Ramazan ayının gecələrinin birində nazil olması ürəyimizdəki Tanrı sevgisini daha da artırır. Həmin gecə Qədr və ya Əhya gecəsi adlanır. "Qurani-Kərim"də bu gecə ilə bağlı "Min aydan daha xeyirlidir", – deyilir. Min ayı ilə çevirdikdə isə 83 ilə bərabər olur. Yəni bir insan ömrü qədər savabı bir gecədə qazanmaq imkanı verir bizə bu ay. Orucluğun başa çatdığı gün fitr bayramı adlanır. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarətə gedir, ruhlarına dualar oxuyurlar. Bir ay boyunca oruc tutmaq hər bir müsəlman üçün fərz olunduğu kimi, Ramazan bayramında da fitrə vermək vacibdir. Peyğəmbərimizin hədislərindən birində deyilir ki, Allah bəndəsindən tələb olunan sədəqə verilməyənədək Ramazan ayında tutulmuş oruc yerlə göy arasında qalır.

Ramazan bütün müsəlmanlar üçün əzizdir, müqəddəsdir. Bu ayı İslam dininə qəlbən bağlı olan xalqımız neçə əsrlərdir ki, yüksək iman, inam və ruh yüksəkliyi ilə qarşılayır. Təəssüflər olsun ki, sovet hakimiyyəti dövründə başqa ibadətlər kimi oruc tutmaq da qadağan idi. Amma xalqımız buna baxmayaraq, ramazan ayında uzun illər gizli oruc tutub. Elə ki müstəqilliyimiz bərpa edilib, insanların vicdan azadlığı da bərqərar olunub, ibadətlərə münasibət dəyişilib. Ramazan bayramı ölkəmizdə dövlət səviyyəsində keçirilməyə başlanılıb. Tarixboyu öz mənəvi dəyərlərini uca tutmuş Azərbaycan xalqı artıq uzun illərdir ki, dünya müsəlmanlarının mübarək Ramazan ayını könül xoşluğu ilə qarşılayır, böyük əhvali-ruhiyyə ilə yola salır.

Arzu edirik ki, bu Ramazan da xalqımız üçün arzulara qanad açdıran, ürəkləri riqqətə gətirən, qəlblərə sevinc bəxş edən ay olsun. Minarələrdəki işıqlardan məscidlərdəki çilçıraqlara, insanların ruhundakı paklıqdan könüllərdəki aydınlıqlara qədər hər yeri öz işığı ilə sonsuz nura qərq edən, qəlbimizi xoş bir meh ilə oxşayan Ramazanda səmimi duyğularla oruc tutan bütün müsəlmanların duaları qəbul olsun, Uca Yaradan dövlətimizə güc-qüdrət, ölkəmizə əmin-amanlıq, xalqımıza xeyir-bərəkət və bolluq bəxş etsin!

**Gülcamal TAHİROVA**

## Şəhidin anım mərasimi keçirilib




Şəhid Elcan Balabəyli dünyaya gəldiyi günün ildönümündə məzarı başında anıldı. Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, şəhid ailələri, qazilər, dövlət qurumlarının əməkdaşları, media nümayəndələri iştirak ediblər.

Çıxış edənlər şəhidin qəhrəmanlığından danışıb, ailəsinə səbir diləyiblər. Qeyd olunub ki, igid Vətən oğullarının rəşadəti sayəsində Azərbaycanın suverenliyi bərpa olundu. Bu xalq igid oğullarını daim qəlbində yaşadacaq.

Qeyd edək ki, Naxçıvan diyarının qəhrəman övladlarından olan Balabəyli Elcan Vasif oğlu 1992-ci il martın 12-də Naxçıvan şəhərində anadan olmuşdur. Heydər Əliyev adına Hərbi Liseyi bitirdikdən sonra təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirən Elcan leytenant hərbi rütbəsi alaraq ordu sıralarında taqım komandiri kimi xidmətə başlayır. Nümunəvi xidməti ilə seçilən gənc zabit 2016-cı il Aprel döyüşləri, 2020-ci il Vətən müharibəsi, 2022-ci il "Qisas əməliyyatı"nda iştirak edərək qəhrəmanlıq göstərib. 2023-cü ilin sentyabr ayının 19-da keçirilən antiterror tədbirləri zamanı Ağdərə uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.



Ali Baş Komandanımız tərəfindən 9 medal və 1 ordenlə təltif edilib.

## Aydın Mehdiyev: *"Naxçıvanın təbiətində elə simalar var ki, onların hər birini sanki heykəltəraş işləyib"*




Azərbaycan Fotoqraflar Birliyinin təmsilçisi, tanınmış fotoqraf, professor Aydın Mehdiyev Naxçıvan Muxtar Respublikasına gəlib. O, "Şərq qapısı" qəzetinə müsahibəsində gəlişinin məqsədi barədə, gələcək planlarından danışıb: "Novruz bayramı ilə əlaqədar Naxçıvandayam. Məqsədim burada keçirilən bayram tədbirlərini fotoaparatımın yaddaşına köçürməkdir. Ata evim Ordubad rayonundadır, uşaqlıq illərim orada keçib. Bildiyimiz kimi, bu il muxtar respublikanın 100 yaşı tamam olur. Mən də fevral ayında ölkəmizin bu qədim diyarının yubileyi ilə bağlı "Sehrli Ordubad" adlı sərgi keçirdim. Məni buraya çəkib gətirən digər bir səbəb isə sevə-sevə təsvir etdiyim Batabat, Göygöl, Əshabi-kəhf və Xaraba Gilandır. Buranın təbiətində elə simalar var ki, onların hər birini sanki heykəltəraş işləyib. Naxçıvanın təbiət möcüzələrini saymaqla bitməz, hər biri bir sirdir. Ən maraqlısı isə Göygöldən aşağı doğru enən hissə, Pəzməri şəlaləsidir. Buranın dağlarındakı sima, gözəllik heç harada yoxdur. Naxçıvanda enerji bir formadan başqa formaya keçir, itmir".

Aydın Mehdiyev qeyd edib ki, muxtar respublikanın 100 illiyi ilə bağlı Naxçıvan şəhərində və Ordubadda sərgi açmaq istəyir: "Bu torpaqda böyüyən biri kimi həmişə buranın gözəlliklərini dünyanın hər yerində tanıtmaq üçün əlimdən gələni əsirgəmirəm. Naxçıvanın təbiəti müxtəlif beynəlxalq serftifikatlar qazanmağıma vəsilə olub. May ayında 10 tanınmış fotoqrafla birgə Naxçıvanın füsunkar təbiətini lentə almağa gələcəyik".

**Bülbül QULİYEVA**

# O, Naxçıvandır, Nəqşicahandır!



# Turana açılan qapı – NAXÇIVAN

## Bütün Türk dünyası üçün əziz olan Vətən torpağı

Naxçıvan Qərblə Şərqi birləşdirən Böyük İpək Yolunun dayanacaq yeri, tarixboyu fatehlərin, qüdrətli dövlətlərin siyasi maraqlarının kəsişdiyi qədim türk diyarıdır. Təkcə 1918-20-ci illərə nəzər salanda görürük ki, qısa müddətdə burada iki xarici dövlətin – ABŞ və İngiltərənin ermənipərəst general-qubernatorluğu fəaliyyət göstərib. Bu o dövr olub ki, Azərbaycan əraziləri hesabına öz dövlətini yaradan ermənilər təkcə əzəli dədə-baba yurdumuz olan Zəngəzuru ələ keçirməklə kifayətlənməyərək Naxçıvana da sahib çıxmaq istəyiblər. Yeni yaranan Azərbaycan Xalq Cümhuriyyətinin şimalda bolşeviklərin, cənubda ermənilərin hərbi təcavüzündən ehtiyatlanaraq barışdırıcı siyasət yeritməsi, qədim Azərbaycan şəhəri olan İrəvanı ermənilərə güzəştə getməsi də “böyük Ermənistan” ideyasını hansı yolla olursa-olsun, gerçəkləşdirmək istəyən daşnakların əl-qolunu daha da açmışdı. Belə ağır və məşəqqətli dövrdə də ermənilərin silahlı basqınlarına mərdliklə sinə gərən Naxçıvan əhalisi öz canını fəda edərək Azərbaycandan ayrılmayıb. Türkiyə dövlətinin köməyi ilə naxçıvanlılar həm döyüş, həm də siyasi meydanda öz sözünü deyiblər. Naxçıvan haqq davasını 1921-ci ildə imzalanmış iki beynəlxalq sənədlə – Moskva və Qars müqavilələri ilə qazanıb. Həmin dövrdə qardaş respublika çətin vəziyyətdə olsa belə Mustafa Kamal Atatürk Naxçıvanın yadelli düşmənlərdən qorunmasında böyük uzaqgörənlik nümunəsi göstərib.

Mustafa Kamal Atatürk *“Azərbaycana bağlı Naxçıvan vilayəti qardaş Türkiyə ilə 11 kilometrlik sərhəddə olan türk yurdudur. Naxçıvan Türk dünyasının qapısıdır, onu qorumaq lazımdır...”* – deyir və çətinliklərə baxmayaraq, Kazım Qarabəkir paşanın rəhbərliyi altında Naxçıvana böyük ordu göndərir. Məhz həmin türk hərbçilərinin köməyi ilə Andranikin rəhbərlik etdiyi daşnaklar Naxçıvandan qovulur.

70 il sovet əsarətində qalan Naxçıvan Türk dünyasının qapısına vurulan böyük bir zənciri xatırladırdı. Ta ki həmin günə kimi, həmin gün 70 illik əsarət zəncirini öz yalın əlləri ilə söküb atan naxçıvanlılar Turanın başı üstündəki qara buludu da dağıtdılar. Amma SSRİ-nin dağılması nəticəsində yaranmış hərcmərclikdən istifadə edən məkrli düşmənlərimiz yenə öz çirkin əməllərini işə saldılar. Vaxtilə Zəngəzuru işğal edənlər indi də Naxçıvana girişməyə cəhd etdilər. Amma naxçıvanlılar yenə mətanətini itirmədi. Həmin illərdə muxtar respublika ağır sınaqlar, məhrumiyyətlər qarşısında qalsa da, Heydər Əliyev kimi dünya siyasətinin böyük korifeyi Naxçıvanda yaşayırdı və muxtar respublikaya rəhbərlik edirdi. Məhz Heydər Əliyev amili bölgəni labüd fəlakətdən xilas etdi.

***“Naxçıvan Türk-İslam dünyasına bir qapıdır”*** söyləyən Heydər Əliyev Türkiyə Respublikasına ilk rəsmi səfəri 1992-ci ilin martında həyata keçirmiş, Qars müqaviləsini yenidən gündəmə gətirməklə Naxçıvanın düşdüyü ağır vəziyyəti aradan götürmək üçün məsələ qaldırmışdır. Nəticədə, Türkiyənin Baş naziri ilə Naxçıvan Ali Məclisinin Sədri Heydər Əliyev arasında birgə protokol imzalanaraq bütün sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. 1992-ci ilin may ayı Azərbaycanın, eləcə də Naxçıvanın müasir tarixinin ən mürəkkəb və gərgin dövrünü əhatə edib. Ermənilər Qarabağın işğalını başa çatdırdıqdan sonra yaranmış şəraitdən istifadə edərək Naxçıvana qarşı hərbi təcavüzü gücləndirdilər. Yalnız Ulu Öndər Heydər Əliyevin gərgin siyasi, diplomatik səyləri nəticəsində onların məkrli planlarının qarşısı alındı. Bu dəfə də qardaş Türkiyə dövləti öz sözünü birmənalı dedi. Türkiyə hökuməti xüsusi bəyanatla çıxış edərək 1921-ci il Qars müqaviləsinə əsasən Naxçıvan haqqında söz sahibi, onun muxtariyyətinin qarantı olduğunu yenidən bütün dünyaya bəyan etdi. Məhz bu bəyanatdan sonra dünyanın 57 dövləti Ermənistanın təcavüzkar hərəkətlərini pislədi.

Sonrakı illərdə iki dövlət arasında yerləşən Naxçıvan mühüm görüşlərə şahidlik edir. Bir neçə dəfə Azərbaycan Prezidenti cənab İlham Əliyevlə Türkiyənin Baş naziri və Prezidentinin Naxçıvanda görüşü olub ki, bu da böyük siyasi məna daşıyır. Bu görüşlərdə və Naxçıvanda keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşündə qədim diyarın türk dövlətləri üçün necə önəmli bir bölgə olduğu vurğulanıb.

### *Bizim ailəmiz Türk dünyasıdır*

Xalqımızın Ümummilli Liderinin ***“Mən ona özüm qədər inanıram. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək”*** kəlamını dediyi vaxtdan cəmi 20 il ötsə də, zaman bir daha böyük Heydər Əliyevin – o siyasət dahisinin bütün bəlalardan xilas edərək ayağa qaldırdığı Azərbaycanı əmin əllərə təslim etdiyini təsdiqlədi. Xalqına arxalanan Müzəffər Sərkərdə bizə Vətən müharibəsində Böyük Qələbəni bəxş etdi, ərazi bütövlüyümüz bərpa olundu. Azərbaycan Prezidenti Naxçıvan Muxtar Respublikasının blokadadan azad edilməsi istiqamətində çox önəmli və tarixi bir məsələnin həllini təmin edərək 2020-ci il noyabrın 10-da imzalanmış birgə Bəyanata qədim diyarla bağlı xüsusi bir maddəni – 9-cu bəndi salmaqla önümüzdəki illərdə muxtar respublikanın beynəlxalq nəqliyyat dəhlizinə çevrilməsinə şərait yaratdı. Zəngilandan Naxçıvana dəmir yolu xəttinin və avtomobil yollarının tikintisi Zəngəzur dəhlizinin açılması ilə yanaşı, həm də Naxçıvanı Türk dünyası üçün qapıya çevirəcək.

1923-cü ildə Mustafa Kamal Atatürkə “Paşam, Naxçıvan barədə niyə bu qədər dönməz və qətiyyətlisiniz?” sualı veriləndə Atatürk demişdir: *“Çünki əminəm ki, Azərbaycan bir gün haqqı olan müstəqilliyi yenidən qazanacaq və Naxçıvan Türkiyəni Azərbaycanla bağlayacaq, Türkistana qapı olacaq”.*

Bəli, Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün dediyi həmin günə az qalıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də artıq gediləcək yolun istiqamətini elan edib: ***“Bizim ailəmiz Türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir”.***

**Ramiyə ƏKBƏROVA**

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

***“Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri - Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir.***

***Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir.”***

Bu gün nəinki naxçıvanlılar, bütün Naxçıvansevərlər tərəfindən dərin ehtiramla yad edilən sənət xadimlərindən biri də ötən əsrdə yaşayıb-yaratmış görkəmli ustad tarzən və bəstəkar Vahid Axundovdur. “O, Naxçıvandır” mahnısının yaranma tarixini araşdırarkən məlum olur ki, bu mahnının tarixi bəstəkarın keçdiyi ömür yolu ilə birbaşa bağlıdır. Bu əbədiyaşar mahnını dinləyəndə insanın ağlına gəlmir ki, onun müəllifi naxçıvanlı olmaya bilər. Çünki diyara oğul məhəbbəti mahnının melodiyasında belə açıq-aşkar duyulur. Ona görə də istər-istəməz düşünürsən: belə istək dolu mahnını ancaq bu torpaqda doğulub böyümüş, onun suyundan içmiş övlad bəstələyə bilər. Mahnının tarixinə nəzər saldıqda isə təəccüblənməmək mümkün deyil. Necə olur ki, bəstəkar Naxçıvanda böyüyüb boya-başa çatmasa da, Naxçıvan diyarına belə dərin sevgi və qəlbən incə tellərlə bağlanır?..

***Vahid Axundov*** 1924-cü ildə Tərtər rayonunun Borsunlu kəndində dünyaya göz açıb. Uşaqlıq və gənclik illərini doğulduğu diyarda keçirən Vahid Axundov 1941-ci ildə müharibəyə yollanır. Bəstəkar taleyin bu ağrı-acılı müharibə yollarının ona bəxş edəcəyi xoşbəxtliyi ağlının ucundan da keçirmir. Odlu-alovlu müharibə illərində ağır yaralanan bəstəkar hərbi hospitalda qaldığı müddətdə Naxçıvandan müharibəyə yollanan tibb bacısı Dilbər Təhməzbəyova ilə tanış olur. Azərbaycanın müxtəlif bölgələrində dünyaya göz açan iki gəncin yolları ağır müharibə illərində kəsişir və bir daha ayrılmır. Vahid Axundovun Dilbər xanıma olan vurğunluğu onun ömür yolunun davamını Azərbaycanın qədim diyarı Naxçıvana salır. Müharibə başa çatdıqdan sonra o, Naxçıvana gəlir və Dilbər xanımı taparaq onunla evlənir. Bəstəkar həyatının ən xoş, gözəl, qayğılı günlərini Naxçıvanda keçirir. O bu qədim diyara mənəvi bir sevgi, məhəbbət hissi ilə bağlanır. Ömrünün sonuna qədər Naxçıvanda yaşayan Vahid Axundov özü ilə bərabər İkinci Dünya müharibəsi iştirakçısı olan Dilbər xanım kimi bir övlad böyütdüyünə görə bu diyara borclu qalmır. Və nəinki Azərbaycanda, bütün Yaxın Şərqdə, İranda, Türkiyədə məşhur olan “O, Naxçıvandır” mahnısını bəstələyir.

Bəstəsi Vahid Axundova məxsus olan, könüllərdə taxt quran bu mahnının sözlərinin kimə aid olduğu isə düşünürəm ki, mənim qədər oxuculara da maraqlıdır. Bəs dərin sevgi hissi ilə yazılan bu mahnının sözlərinin müəllifi kimdir? Vahid Axundovun həyatına nəzər salarkən onun Naxçıvan Tibb Məktəbini bitirərək bir müddət tibb işçisi kimi fəaliyyət göstərdiyini öyrənirik. Həmin dövrdə o çalışdığı Naxçıvan şəhərindəki xəstəxanada hamının hörmətlə yanaşdığı həkim, şair-dramaturq, “O, Naxçıvandır” mahnısının sözlərinin müəllifi Əliheydər Qənbərov ilə tanış olur. Yaradıcılıq əlaqələri onları daha da yaxınlaşdırır. Daha bir maraqlı məqam isə odur ki, mahnının sözlərinin müəllifi də əslən naxçıvanlı deyil, Bakı şəhərindəndir. Buna baxmayaraq, hər iki sənətkar Naxçıvana ülvi hisslərlə bağlı olub. Əliheydər Qənbərov 1958-ci ildə mahnının sözlərini Vahid Axundova təqdim edəndə bəstəkar çox sevinir. Bir neçə gün ərzində mahnını ərsəyə gətirir və Naxçıvan radiosu nəzdində fəaliyyət göstərən ansamblın tərkibində ilk dəfə özü ifa edir. 1959-cu ildə onun da xidməti ilə yaradılmış Naxçıvan Dövlət “Araz” Mahnı və Rəqs Ansamblının repertuarına “O, Naxçıvandır” mahnısı da daxil edilir və bütün konsert proqramlarında ifa olunur. Mahnı qısa zaman kəsiyində populyarlıq qazanır. Mahnının Naxçıvandan kənarda sevilməsi və şöhrət qazanması, əsasən, Azərbaycan Respublikasının Xalq artisti, mərhum xanəndəmiz Abdulla Babayevin onu oxuduğu dövrə təsadüf edir. Bu mahnı Abdulla Babayevin yaradıcılığının zirvəsini təşkil edir desək, yanılmarıq. Mahnının melodiyasındakı milli kolorit, şirinlik, sözlərin musiqi ilə ahəngi dinləyicini heyran edir. Bəstəkar musiqinin dili ilə Naxçıvanın tarixini, onun gözəlliklərini vəsf edir, dinləyicinin ruhunu oxşayır. Onun ifasında “O, Naxçıvandır” mahnısı respublikamızda, eləcə də bir çox ölkələrdə qastrol səfərlərində özünəməxsus şəkildə ifa olunur və sevilir.

İgidlər oylağına, dahilər yetişdirən bu diyara həsr olunan “O, Naxçıvandır” mahnısı onu dinləyən hər kəsin ruhunu oxşayır, mənəvi varlığına rahatlıq gətirir və diyarımızın gözəl təbiətini gözlər önündə canlandırır. Tanrının sənətkara bəxş etdiyi istedad, sehrli yaradıcılıq inciləri ilə onun musiqi ərməğanına çevrilən, bu gün də öz təravətini itirməyən “O, Naxçıvandır” mahnısı xalqımızın mədəni sərvətlərindəndir desək, yəqin ki, yanılmarıq...

**Gülcamal TAHİROVA**

# İllər arxasından gələn səslər...

Xəyalımın keçmişə açılan, “uşaqlıq çağları” adlandırdığım pəncərəsindən günün hər saatında, hər anında duyuram bu səsləri. Yaş ötdükcə, həyatın çətinlikləri ilə qarşılaşdıqca o günlərin əlçatmazlığını dərindən dərk etsəm də, qəlbim bu acı həqiqətlə barışmaq istəmir. Hər ötən gün daha da ürəkdən arzulayıram o dövrə qayıtmağı, yaşananları yenidən yaşamağı. Gözlərimin həsrət dolu alovunu söndürə bilmir nə yağan qar, nə də ki yağış, könlümdən qopan hicran səsləri-ni yenidən üzümə çırpır əsən külək, qopan tufan...





Günəşin zərrin şəfəqlərinin ana təbiətə yaşamaq-yaratmaq ruhu verdiyi bir bahar səhərində keçirəm doğma kəndimin xatirəmdə dərin, unudulmaz izlər buraxan, bir vaxt daşı-kəsəyi ilə ayaqlarımı incitsə də, indi hamarlığı ilə gözoxşayan küçələrindən. Məsum duyğulu, pak düşüncəli uşaqlıq illəri yenidən xəyalıma qonaq gəlir. Canlanır gözlərim önündə həmyaşıdlarımla küçədə “qaçdı-tutdu” oynamağımız, çınlayır qulağımda ağbirçək nənəmin “Ay bala, gəl evə, az “qovalaqaç” oyna, axırda tərləyib xəstələnəcəksən” sözləri. İstəyirəm, əvvəlkitək yorulub əldən düşənədək oynayım, “Tərləyib xəstələnməyim önəmli deyil, yetər ki, uşaq şuxluğum, təravətim qayıtsın geri” sözləri ilə hayqırır könlüm. Döngəmizin başına çatar-çatmaz rastıma çıxır əllərində çörək dəstələri evə tələsən bir neçə xanım. Bu an sanki duyuram nənəmin halal zəhmətlə qurduğu təndirdən ətrafa yayılan ləziz çörək ətrini. Düşür yadıma nənəmin səhər obaşdan qonşu qadınlarla birgə təndir salıb, çörək yapmağı, arabir mənə “Bala, o küfləni aç, təndirin nəfəsi kəsildi” deməsi, isti təndir çörəyi ilə biz nəvələrinə tutduğu, dadı indi də damağımda qalan pendir dürməyini bağımızdan oğrun-oğrun qopardığımız yenicə qızaran pomidorla bir küncə çəkilib şən, deyə-gülə yeməyimiz, gün batana yaxın iy gedir deyə qonşu evlərə də təndir çörəyindən pay aparmağım. Qəlbimə yayılan munis duyğularla hiss edirəm oyunlar əsnasında dizimin, dirsəyimin sıyrılmasından yaranan ağrının xəfif sızıltısını. Necə də şirin gəlir bir zamanlar ağrı-acılar yaşadan o anlar indi. Çınlayır qulağımda var gücümlə vurduğum topun qırdığı şüşənin cingiltisi, həvəsləndirirəm babamın könlümə dəyməmək üçün, ay bala, olan işdir düzələr, deməsindən, düşür yadıma məhəlləmizdə uşaqlarla oynadığımız “Bənövşə” oyunu. Qurduğumuz bəndin daha da möhkəm olması üçün yoldaşımın əlindən bərk-bərk yapışmağım, qarşı bənddən birinin adını çəkib, onu cəldliyə, mübarizliyə səsləməyim, sağlam rəqabətə qapılaraq həmyaşıdlarıma meydan oxumağım. “Nə qədər ki hər kəs bir-birindən möhkəm yapışıb, bu bəndi heç kim qırıb keçə bilməz” fikrinə xəyalımda yenə inanıram, uşaqlıqdakı kimi. Xəyallar aləminin sehrindən qopmadan düşünürəm: “Bənövşə” oyunu ilə atalarımızdan miras qalan “Güc birlikdədir!” hikmətinin məğzi açılır, mahiyyəti sirayət edirdi biz uşaqların aləminə, maraq dünyasına. Özümüz də fərqinə varmadan təməli qoyulurdu gələcək inkişafımızın, formalaşırdı düşüncəmizdə yumruq kimi birlik, bərabərlik hissi, əzmi. Oyun həm əyləndirir, həm də düzgün tərbiyə edir, öyrədirdi bizi.






Məhəlləmizin hər qarışına ayaq basdıqca dilə gəlir şirin-şəkər xatirələr, qarışır bir-birinə illər arxasından gələn pıçıltılar: xatırlayıram məhəllə yoldaşlarımla “Gizlənqaç” oynamağımızı. Gözlərim önünə gəlir həmyaşıdımın əlləri ilə gözünü bərk-bərk yumması, “Alma saraldı, gözüm qaraldı”, – deyib gözünü açanadək qaçıb xəlvəti yerdə gizlənməyimiz. Budur, o, gözlərini açaraq səksəkəli halda axtarır gizlənənləri. Yeri müəyyən olunan daha cəld tərpənərək həmin yerə birinci gəlir. Sonra həmyaşıdım yenidən yumur gözlərini. Beləcə, davam edir əyləncə dolu oyunumuz, aşılanır bizə hər işdə çevik, zirək, ayıq-sayıq davranmaq kimi üstün məziyyətlər. Böyüyüb yaşa dolduqdan sonra önümüzə çıxan maneələrə qarşı atdığımız addımlar, gördüyümüz işlər zamanı dərk edirik bu oyunun xarakterimizi möhkəmləndirdiyini.

Səhərin erkən çağından başlayırıq “Qəçəmədaş”a. Həmiz bir kənara çəkilib toplayırıq daşları bir-bir. Yığırıq əlimizə altı ədəd kiçik daş. Bir daşı yuxarı atanda yerə tökülür ovcumuzdakı digər daşlar. Sonra həmin daşı yenə yuxarı atıb, o, aşağı enənədək yerdəkiləri yığırıq bir-bir. Var gücümüzlə çalışırıq ki, havadakı daş yerə düşməsin. Bu oyunla çevikləşib, cəldləşirik, diqqətimiz cəmləşir, fikrimiz qətiləşir. Hər günü bir imtahan olan həyat meydanına bənzədirəm “Qəçəmədaş”ı. Görəkdir ki, hər işi vaxtlı-vaxtında, yubanmadan görəsən, atalarımız demişkən, bu günün işini sabaha qoymayasan. Əks-təqdirdə göydəki daşın yerə düşməsi kimi arzuların, ümidlərin də düşər suya.

Budur, həmiz əlimizdə məxsusi zövqlə yonub düzəltdiyimiz bir ağac parçası, “Çilingağac” oynamaq üçün yığışmışıq həmişəki məkanımıza. Öncə münasib yer tapır, kiçik çala qazırıq. Sonra başlayırıq oyuna. Çilingi havaya qaldırıb toxmağın arxasıyla vururuq irəli. Çiling havada ikən rəqibimiz çalışır ki, onu ya əli, ya da əlindəki toxmaqla vursun, yaxud tutsun. Çiling tutulur, vuran uduzur. Qalib gələn ürəkdən sevinir, uduzansa, əl atır cığallığa. Bax, beləcə, şən keçən oyunumuz öyrədir bizə hər işdə diqqətli, ehtiyatlı, dəqiq olmağı, qarşılaşdığımız məsələlərə daha həssas yanaşmağı, səhvə yol verməməkdən ötrü düzgün qərar verib, səlis davranmağı. “Yeddidaş” oynamağımız canlanır xəyalımda. Aşılayır bizə bu oyun daşı daş üstünə qoymağın nə qədər çətin olduğunu, onu dağıtmağın isə an içində mümkünlüyünü. Xəyallar məngənəsində düşünürəm bircə anlıq. Məgər yaşadığımız həyat da belə deyilmi? Bacarığın, qabiliyyətin, zəhmətin hesabına illərlə qazandıqlarını, nail olduqlarını səhlənkar davranışınla, yanlış hərəkətinlə, buraxdığın səhvlə itirirsən bir neçə dəqiqəyə. Elə isə bu kiçik oyunun əhəmiyyəti həyat kimi “Böyük oyun”dan çıxartdığımız nəticədən bəlli olur. “Ağac-ağac” oyunu itigörmə, dəqiqlik və diqqət tələb edərdi bizdən, “Evcik-evcik”də özümüzə qurardıq “ev-eşik” sanki ailə sahibi olardıq, öz balaca düşüncəmizlə idarə edərdik o “ailə”ni, “ortadaqaldı”da var gücümüzlə o yan-bu yana qaçaraq topdan yayınıb ortada qalmağa çalışardıq. Hələ küçə-bacadan topladığımız məftillərlə düzəltdiyimiz “müxtəlif markalı avtomobil”ləri demirəm. Hərə əlində özünəməxsus “avtomobil”lə düşərdik tozlu-torpaqlı yolların canına. Aramızdakı rəqabətdən artardı əl qabiliyyətimiz, təkmilləşərdi düşüncəmiz, formalaşardı göz duyumumuz, estetik zövqümüz...

Uşaqlıq xatirələri ilə dolu, ayrılmaq istəmədiyim xəyalların əlindən məni o illərin canlı yadigarı, həmyaşıdım qoparır, əyləşib məhəlləmizdə söhbət salırıq ötənlərdən-keçənlərdən. Eh, uşaqlığımızın o qədər yaddaqalan məqamları vardır ki, xatırladıqca bir-bir çözələnir, bitmək bilmir... Bu oyunlarla çəkişib-bərkişərək daha möhkəm tellərlə bir-birimizə bağlanardıq, yaşadıqlarımız, qazandıqlarımız isə göründüyü kimi, heç vaxt unudulmur, enişli-yoxuşlu həyat yollarında daim köməyimiz, dayağımız olur...

Bəli, artıq zaman qatarı sürətlə ötüb keçib, illər, fəsillər arxasında qalıb sevinc dolu məsum baxışlı, saf, təmiz duyğulu uşaqlıq çağlarım. Günü-gündən gözəlləşən kəndimizin ucu-bucağı görünməyən, tərtəmiz yollarına tamaşa etdikcə səssizlik, sakitlik təlatümə gətirir qəlbimdəki sual dolu hisslərimi, ayağımı əzən əvvəlki daş-kəsəyin yerini indi ürəyimi sıxan sükutun hayqırtısı zəbt edib. Heyifsilənirəm. Daha nə küçədə qaçan-tutan, bir-birinin əlindən bərk-bərk yapışıb birlik göstərən, bənd yaradan, ortadaqalan, çiling atan azyaşlı görmək olur, nə də uşaqları bu oyunlara həvəsləndirən, balacaların dünyasına toxunmadan bir kənardan xəlvətcə onları izləyən valideynləri. Artıq “ocağın közünü illərin qar-boranı çoxdan söndürüb, su qaynatmağa maraq da, görünür, elə o közlə sönüb gedib”, damalar cızmağa hövsələ qalmayıb, nəinki onun üzərindən ehtiyatla hoppanmağa cəhd. Nə gizlənən var, nə də axtaran, əl üstə kimin əli deyəni də tapammarsan... Bu səssizlik ağuşunda düşünürəm: Bəs niyə bir vaxtlar tozlu-torpaqlı küçələrdə oynayan biz uşaqların şən-şaqraq gülüşlərinin yerini indi səssizlik tutub? Cavab isə gün kimi aydındır. İndiki uşaqlar ya evdə böyüklərin tövsiyəsi ilə mobil telefona, sosial şəbəkələrə aludə olub, ya da kompüter oyunlarına. Görəsən, valideynlər niyə cəmiyyətin gələcək inkişafına yönəlmiş bu taleyüklü məsələyə belə biganədirlər?! Axı onlara eyni laqeyd münasibət göstərilməyib, vaxtilə adını sadaladığım xalq uşaq oyunları sevə-sevə öyrədilib indiki valideynlərə. Bəs biz valideynlər özümüzə bircə dəfə də olsa, “axı biz vaxtilə gələcəyimizin sağlam təməllər üzərində qurulmasına sövq edən şirin-şəkər oyunlar oynamışıq, bu səbəbdən indi xatırlamağa, yada salmağa, balacalara danışmağa maraqlı uşaqlıq xatirələrimiz, anlarımız var, bəs övladlarımızın necə?” sualını vermişikmi? Özümüzü övladlarımızın yerinə qoymuşuqmu? Gəlin düşünək görək, bu gün kompüterdə, planşetdə, telefonda mənasız, dava-dalaş, aqressiya yaradan oyunlarla, sosial şəbəkələrdə vaxt keçirən uşağın sabahı, təlim-tərbiyəsi necə formalaşacaq, onun gələcək nəsillərə danışmağa hansı maraqlı xatirəsi ola bilər? Kimsə demir ki, kompüteri, planşeti, mobil telefonu həyatımızdan çıxarıb bir kənara ataq, əsla yox. Təbii ki, müasir texnologiyaları öyrənməyimiz, gündəlik həyatımızda tətbiq etməyimiz inkişafımıza hesablanıb və zamanın tələbidir. Ancaq milliliyimizi, kimliyimizi yaşadan, sağlam həyat tərzi aşılayan uşaq oyunlarını da unutmaq olmaz. Əziz valideynlər, bircə anlıq illər arxasından gələn öz uşaqlıq xatirələrinizin səsinə qulaq asın və övladınızı o gözəl anları yaşamaqdan məhrum etməyin...

*Nail ƏSGƏROV*

## BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycan Nümayəndəliyi tərəfindən Naxçıvanda təlimlər keçirilib



BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycan Nümayəndəliyi Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə təlimlər keçirib.

Naxçıvan Muxtar Respublika Xəstəxanasında təşkil olunan təlimin açılış tədbirində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, “Ümidli Gələcək” Sosial Təşəbbüslər İctimai Birliyinin sədri, Yuvenal Ədliyyə Mərkəzinin rəhbəri Kəmalə Aşumova, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, Yuvenal Ədliyyə Mərkəzinin hüquqşünası, UNICEF-in təlimçi-eksperti Rafiq Alışov, mərkəzin psixoloqu Gülşən Axundova yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi sahəsində, Uşaq hüquqları haqqında BMT Konvensiyasının müddəalarının tələblərinə uyğun həyata keçirilən dövlət siyasətindən danışıblar. Bildirilib ki, uşaq hüquqlarının müvafiq aspektlərində təlimlərin keçirilməsində məqsəd qazanılan təcrübənin bölüşdürülməsi ilə aidiyyəti qurumların əməkdaşlarının bilik və bacarıqlarının təkmilləşdirilməsidir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə UNICEF-in təyin etdiyi təlimçilər tərəfindən muxtar respublikada təlimlər 4 proqram əsasında 5 gün ərzində keçirilib.

# Elimizə bahar gələndə















Soyuq qışın ardından ılıq nəfəsi ilə isidir, gəlişi ilə təbiət oyanır, canlanır. Ağaclar çiçək açır, quşların nəğmələri ruhumuzu oxşayır. Həyatımıza yeni ahəng qatılır...

Günəş sabah erkəndən dağların arxasından boylanır, işığını ətrafa səpələdikcə çəmənlər, düzlər yaşıllaşır, güllər-çiçəklər torpaqdan baş qaldırır, ətraf əlvan rənglərə boyanır. Dağlar bəyaz libasını atır, günəşin qızılı şüalarının isitdiyi zərif, xoşətirli novruzgülü, bənövşə, nərgiz, lalə hər yeri gözəlləşdirir. Hara baxsan gözümüzə, könlümüzə xitab edən bağçaların bu zərifyarpaqlı, incəsaplaqlı, xoşətirli çiçəklərinin, çəmənlərin otunun, dağ və dərələrdə bitən min bir dərdin dərmanı olan bitkilərin ətrini duyursan. Uşaqlar, gənclər üz tuturlar bənövşə ətirli bağçalara, dəstə-dəstə toplayıb öz sevdiklərinə hədiyyə edirlər. Gecələr səmada ətrafı işıqlandıran Ay da səni müjdələyir, gözəl bahar. Dağların başındakı, dərələrin yamacındakı qarları əridib çaylara qatırsan. Sulu çaylar, çağlayan bulaqlar xoş zümzüməsi ilə ətrafda xoş aura yaradır. İnsanların əhvali-ruhiyyəsinə nikbinlik gəlir, dodaqlara təbəssüm qonur. Canlı təbiətin bir parçası olan bəzi heyvanlar da qış yuxusundan ayılır, uzaq diyarlara köç etmiş quşlar geri dönürlər. Hər səhər ağac budaqlarında, evlərin damında, eyvanlarda qərar tutan quşların cəh-cəhinin, nəğməsinin səsinə oyanmaq necə də xoşdur.

Analarımız, nənələrimiz torpaqdan boy göstərən quşəppəyi, qazayağı, cincilim, gicitkən, yemlik, yarpız toplayıb kətə bişirirlər. Onların müxtəlif göyərtilərdən hazırladıqları dadlı, vitaminlərlə zəngin yeməklər damaq zövqümüzü oxşayır. Təbiətin canlanması ilə birlikdə təbii sərvətimiz, insanların əsas məşğuliyyət sahəsi olan torpaq da əzizlənir, əkin mövsümü başlanır. Bahar həm də gələcək məhsul bolluğunun xəbərçisi kimi həyatımızda mühüm rol oynayır.

Təbiətin, həyatın oyanması məhz elə Novruzdan – "yeni gün"dən başlanır. Xalqımızın 70 illik imperiya "caynağı"ndan qopararaq xilas etdiyi milli dəyərlərimiz, ənənələrimiz üzərində ucalan bayramımızı xalqımız sevinclə qeyd edir. Bu gündən sonra yazın ətri tamamilə duyulur.

Yurdumuza, təbiətimizə xoş gəlir bahar. Biz isə ən əsası, ömrümüzün baharını qoruyaq. Qoruyaq ki, Vətənimiz də həmişə bahar təravətli, bahar ovqatlı olsun!

Ordubad rayonunda və Babək rayonunun Zeynəddin kəndində təmtəraqla qarşılanan Novruzun fotolarını təqdim edirik.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**
**Foto: Zülfüqar QURBANLI**

## Elan

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Tibb Kolleci 2024-2025-ci tədris ili üçün Hərbi feldşer işi ixtisasına tələbə qəbulu elan edir**

Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Tibb Kollecinin Hərbi feldşer işi ixtisasında təhsil Azərbaycan dilində, əyani formada 3 il müddətinə aparılır. Dövlət təhsilalanların qeyd olunan ixtisas üzrə pulsuz təhsil almaq hüququnu təmin edir.

Hərbi feldşer işi ixtisasına cari ildə tam orta ümumtəhsil müəssisəsini bitirən, sentyabr ayının 15-nə kimi 19 yaşı tamam olmayan və hərbi-həkim komissiyasının rəyinə əsasən təhsil almağa yararlı sayılan oğlanlar qəbul edilir.

Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Tibb Kollecinin Hərbi feldşer işi ixtisasına qəbul olunmaq istəyən namizədlər 01.04.2024-cü il tarixdən 30.04.2024-cü il tarixədək Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Tibb Kollecinin sənəd qəbulu komissiyasına ərizə ilə müraciət etməlidirlər.

***Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:***

*1. "Abituriyentin elektron ərizəsi"nin surəti;*
*2. Şəxsən yazılmış tərcümeyi-hal;*
*3. Doğum haqqında şəhadətnamənin surəti (məktəbin direktoru tərəfindən təsdiq olunmuş);*
*4. Şəxsiyyət vəsiqəsinin surəti (məktəbin direktoru tərəfindən təsdiq olunmuş);*
*5. Cari ildə məzun olması haqqında arayış;*
*6. Təhsil aldığı yerdən xasiyyətnamə;*
*7. 2 ədəd rəngli fotoşəkil (3x4);*
*8. Valideynlərin və ya qəyyumluq edən şəxslərin razılıq ərizələri (valideynləri vəfat etdiyi halda ölüm haqqında şəhadətnamənin surəti);*
*9. Tibbi göstərişlərə görə qanın Vasserman, İİÇV seroloji reaksiyasına və hepatit B, C daşıyıcılığına müayinəsinin nəticələri;*
*10. Psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi xəstəliklər üzrə qeydiyyatda olub-olmadığı haqqında arayışlar.*

***Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Tibb Kollecinin Hərbi feldşer işi ixtisasına qəbul aşağıdakı qaydada həyata keçirilir:***

Namizədlər "Abituriyentin elektron ərizə"sində orta ixtisas təhsil formasını seçərək Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Tibb Kollecinin sənəd qəbulu komissiyasına ərizə ilə müraciət edir. Namizədlərin adlı siyahısı Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsinə göndərilir. Qeydə alınan namizədlər ixtisas seçimi zamanı Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Tibb Kollecinin Hərbi feldşer işi ixtisasını seçməlidir. Namizədlər Hərbi feldşer işi ixtisasına Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsi tərəfindən keçirilən buraxılış imtahan nəticələri əsasında qəbul edilirlər.

İxtisas seçimi zamanı Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Tibb Kollecinin Hərbi feldşer işi ixtisasını seçmiş və qəbul üçün keçid balını toplamış namizədlər qeyd olunan ixtisasa qəbul olunur.

Hərbi feldşer işi ixtisasına sənədlərin qəbulu 1 aprel 2024-cü il tarixdən 30 aprel 2024-cü il tarixədək Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Tibb Kollecində aparılacaq.

***Əlaqə nömrələri: 545-03-53***
***545-03-52***

## İtmişdir

Şərur rayonunun Şəhriyar kəndində yaşamış Əsgərov Elşən Sadıq oğlunun adına verilmiş JN-43$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Molla Pənah Vaqif küçəsi, döngə 2, ev 3-ün Vəliyeva Züleyxa İsrafil qızının adına (qeydiyyat nömrəsi 1219000877) olan MH-0062894 seriya nömrəli Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

***

Türkiyə vətəndaşı Muhammet Reşat Telin adına olan S-35460777 nömrəli Türkiyə Cümhuriyyəti vətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

***

Qafarov Vasif Sətdar oğlunun adına Naxçıvan Dövlət Universiteti tərəfindən 2000-ci ildə verilmiş diplom itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Aşağı Uzunoba kəndində yaşamış Əsgərova Fatma Məmmədvəli qızının adına olan JN-478 nömrəli "Torpağın mülkiyyət hüququna dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Məhərrəmov İslam Qurban oğlunun adına olan JN-1522$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Quliyeva Gülsüm İsmayıl qızının adına verilmiş 31.05.2010-cu il tarixli MH-0016736 nömrəli çıxarış, 17.05.2010-cu il tarixli AA-002040 nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Cəhri qəsəbəsində yaşayan Həsənova Xalidə Həsən qızına məxsus JN-2430$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 75